AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞ: BULLİNQ

BAKI 2024

**Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi**

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞ:

BULLİNQ

Bakı - 2024

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞ: BULLİNQİN AŞKARLANMASI ÜZRƏ ANALİTİK HESABAT

Redaksiya heyətinin sədri:
Aynur Sofiyeva

Redaksiya heyəti:
Elgün Səfərov
Cəmilə Bağırova
Pərvanə Əsgərzadə
Təranə Piriyeva
Bahar Həsənli

Təhlilin hazırlanmasında ekspert qismində iştirak edən:

Qoşqar Məhərrəmov
Təhsilin idarə olunması üzrə fəlsəfə doktoru, tədqiqatçı

İşin icraçısı:
Təranə Piriyeva
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

MÜNDƏRİCAT

Ön söz 5

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış.....9

Giriş..... 9

Tədqiqatın elmi ədəbiyyatdakı yeri 9

Tədqiqatın əsaslandırılması 10

Elmi ədəbiyyatda bullinq və onunla mübarizə yolları..... 11

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın fəsadları 12

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri 13

Ölkədə bullinqlə bağlı cari vəziyyət 16

Tədqiqatda istifadə olunan metodologiya 16

Əldə olunan məlumatlar 17

Kəmiyyət yanaşması ilə əldə olunan məlumatların təhlili 17

Keyfiyyət metodu ilə əldə edilən məlumatlar və məzmun təhlili 23

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri 25

Ailə 26

Məktəb və cəmiyyət 28

Şəxsin özü 31

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın nəticələri 33

Ailə 33

Məktəb və cəmiyyət 34

Şəxsin özü 35

Bullinqlə mübarizə yolları.....36

Ailə 36

Məktəb və cəmiyyət 39

Şəxsin özü 48

Əldə edilən nəticə və irəli sürülən təkliflər..... 50

Ailələrə, valideynlərə yönəlik təkliflər 50

Məktəblərə, cəmiyyətə, dövlətə yönəlik təkliflər 52

Şəxsin özünə yönəlik təkliflər 53

Son söz 55

Əlavələr 56

İstifadə olunmuş ədəbiyyat 60

ÖN SÖZ

Azərbaycan Respublikasında uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin başlıca prinsipləri uşaqların keyfiyyətli təhsil ilə və müasir tələblərə cavab verən tibbi xidmətlərlə təmin edilməsi, hərtərəfli qayğı ilə əhatə olunması, yüksək mənəvi dəyərlərə əsaslanan sosial mühitdə böyüməsi üçün zəruri şərait yaradılması, uşaqların şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasıdır.

Uşaqların sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud, aztəminatlıailələrdən olan uşaqların sosial müdafiəsinin təmin edilməsi prinsipləri dövlətin qəbul etdiyi sosialyönümlü proqramlarda xüsusi yer tutur.

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşularaq uşaqlarla bağlı qanunvericiliyi beynəlxalq normalara uyğun təkmilləşdirmişdir. Bununla yanaşı, BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi"ndə əks olunan və 2016-cı ildən qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri uşaqların rifahının yüksəlməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsini zəruri edir.

Ölkənin iqtisadi inkişaf tempi aztəminatlı ailələrdən olan, eləcə də sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların hərtərəfli inkişafı istiqamətində tədbirlərin gücləndirilməsinə imkan verir.

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası" Azərbaycan Respublikasında uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə uşaqların müdafiəsinin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyi göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, uşaqların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri və bütövlükdə Azərbaycan Respublikasında uşaq siyasətinin əsas hədəflərini müəyyən edir. Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamının 3.1-ci bəndinə uyğun olaraq Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı hazırlanmışdır.

Azərbaycan Respublikasında 1998-ci ildə "Uşaq hüquqları haqqında", 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", 2002-ci ildə "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", 2003-cü ildə "Körpələrin və erkən

yaşlı uşaqların qidalanması haqqında", 2005-ci ildə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında", 2022-ci ildə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının qanunları, 2023-cü ildə "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası", "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları", "İnklüziv təhsilin təşkili Qaydası" və digər normativ hüquqi aktlar qəbul edilmişdir.

Həmçinin Azərbaycan Respublikası 2002-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nın "Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu"nu və "Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokolu"nu, 2008-ci ildə "Əlillərin hüquqları haqqında" Konvensiyanı ratifikasiya etmiş, 1993-cü ildə Beynəlxalq Əmək Təşkilatının "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında" 138 saylı Konvensiyasına və 2004-cü ildə "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyasına, 2000-ci ildə "Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında" Avropa Konvensiyasına, 2004-cü ildə "Ölkələrarası övladlığagötürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında"

Konvensiyaya, 2019-cu ildə "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyasına və digər beynəlxalq sənədlərə qoşulmuş və bunun nəticəsi olaraq milli qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

Qəbul edilmiş normativ hüquqi aktlar uşaq problemlərinin həllində mühüm rol oynayır. Bununla yanaşı, çətin həyat şəraitində olan uşaqların müdafiəsi istiqamətində daha səmərəli tədbirlər görülməsinə, onların cəmiyyətə inteqrasiyası sahəsində qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasına və çevik prosedurların müəyyənləşdirilməsinə ehtiyac vardır.

2013-cü ildə "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, 2018-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018–2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli 550 nömrəli Sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014–2020-ci illər üçün Dövlət Proqramı", 2018-ci il 10 may tarixli 64 nömrəli Sərəncamı ilə "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018–2020-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı təsdiq edilmişdir.

Uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət sahəsində aparılan yeni hüquqi və institusional islahatlar dövlət uşaq müəssisələrinin monitorinqinin aparılmasına, uşaqlarla bağlı ölkədə həyata keçirilən tədbirlərin qiymətləndirilməsinə və bu sahədə çatışmazlıqların müəyyən edilməsinə imkan yaradır. Bununla yanaşı, uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qurumların işinin beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi zəruridir. Bu tədbirlərdən biri olan "Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: bullinq" adlı araşdırma hesabatı bu gün uşaqların məruz qaldığı mühüm bir problemə işıq salır. Bullinq təkcə uşaqları deyil, cəmiyyətin bütün təbəqələrini əhatə edən və dərin yaralar açan ciddi bir problemdir. Bu hesabatda məqsədimiz yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəblərini, nəticələrini və həll yollarını elmi əsaslarla ortaya qoyaraq uşaqlarımızın daha xoşbəxt gələcəyə sahib olmasına töhfə verməkdir.

İXTİSARLAR

AQUPDK - *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*

APA (American Psychological Association) – *Amerika Psixologiya Assosiasiyası*

BMT - *Birləşmiş Millətlər Təşkilatı*

İƏİT / OECD (Organisation for Economic Co-operation and Development) – *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı*

PISA (Programme for International Student Assessment) – *Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı*

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞ

Giriş

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə 2023-2024-cü tədris ilində Bakı şəhərində 13-17 yaşlı uşaqlar arasında aqressiv davranışların (bullinqin) yayılma səviyyəsini, yaranma səbəblərini, mümkün nəticələrini və həlli yollarını elmi cəhətdən aşkara çıxarmaq məqsədilə tədqiqat layihəsi həyata keçirilib.

Bu araşdırma yeniyetməlik dövrünə xas həssaslığın və qarşılıqlı sosial əlaqələrin gücləndiyi məktəb mühitində yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın uşaqların psixoloji, sosial və akademik inkişafına mənfi təsirlərini müəyyən etmək məqsədi daşıyır. Tədqiqat çərçivəsində yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın müxtəlif növləri (fiziki, verbal, psixoloji, kiberbullinq və s.), bullinq törədən və bullinqə məruz qalan uşaqların xüsusiyyətləri, eləcə də, bu cür davranışın əsas səbəbləri (məişət zorakılığı, həmyaşıd münasibətləri, sosial mediadan istifadə və s.) və yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın mümkün nəticələri (depressiya, narahatlıq, məktəbdə uğursuzluq, intihara meyil və s.) araşdırılır.

Nəticələr əsasında bullinqlə mübarizə üçün effektiv yol xəritəsi və strategiyaların hazırlanması, məktəb mühitində yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınması istiqamətində proqramların həyata keçirilməsi və bullinqə məruz qalan uşaqlara dəstək xidmətlərinin təkmilləşdirilməsi planlaşdırılır.

Tədqiqatın elmi ədəbiyyatdakı yeri

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış və bullinq dünyanın əksər ölkələrində geniş yayılmış problemlərdən biridir. Bu problemin bir çox sahələrlə yanaşı, təhsil sahəsi ilə əlaqəli tərəfləri də vardır. Çünki uşaqlar arasında cərəyan edən aqressiv davranışlar təhsil mühitinə zərər verir, uşaqların psixoloji vəziyyətinə mənfi təsir etməklə onların öyrənmə və inkişafına mane olur. Bir çox tədqiqat mərkəzləri və təhsil idarəçilərini narahat edən bu məsələ qlobal miqyasda araşdırılan və həll yolları axtarılan problemlərdən biridir. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, dünyada uşaqların 35 %-i yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın müxtəlif formalarının mənfi təsirinə məruz qalır. Bu hesabat yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın uşaqların mental sağlamlığına, akademik nəticələrinə, emosional və psixoloji rifahına mənfi təsir etdiyini ortaya qoyur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şagirdlərin Beynəlxalq Qiymətləndirilməsi Proqramının (PISA)

hesabatına (2023) əsasən isə zəif akademik nəticə göstərən uşaqların əksəriyyəti bullinqə məruz qalan uşaqlardır. Bu nəticə bullinqlə zəif akademik nəticə arasında korrelyasiyanın olduğunu göstərir. PISA-nın hesabatına görə, təhsil sistemində yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın çox olduğu ölkələrdə akademik nəticələr daha aşağı, az olduğu ölkələrdə isə daha yuxarıdır. Ölkələrin daxilində də zəif nəticə göstərən uşaqların əksəriyyətinin bullinqə məruz qalan və ya bullinq törədən uşaqlar olduğu müşahidə edilir. Dünya üzrə statistikaya nəzər salsaq, 12-18 yaş arası uşaqlar arasında aparılmış sorğular onların 20%-nin bullinqlə üzləşdiyini ortaya qoymuşdur, 30% uşaq isə bu və digər formada bullinq törətdiyini etiraf etmişdir (Facts About Bullying, 2019).

Əsasən ibtidai siniflərdən başlayaraq məktəbyaşlı uşaqların bir-birinə qarşı göstərdiyi aqressiyanı xarakterizə edən bullinqin siniflərdə, universitetlərdə, iş yerlərində və hətta qocalar evində də baş verməsi mümkündür. Qeyd edilən mühitlərdə aqressiv davranışları ehtiva edən *bullinq* termini ingilis dilində kiməsə zərər yetirmə və ya buna meyilli olma, kimisə qorxutma, nəyəsə məcbur etmə kimi mənalara gəlir. Xüsusən də, əgər bu davranışlar nisbətən zəif, ictimai imtiyazları az olan, alçaldılması, əzilməsi asanlıqla mümkün olan və özünü müdafiə edəcək mövqedə olmayan fərdlərə qarşı təkrarən törədilirsə, bunlar bullinq halları kimi xarakterizə edilir. Bullinq həm də bir dəfə deyil, vaxtaşırı olaraq törədilir və adətən fiziki cəhətdən güclü uşaqların digərlərinə qarşı aqressiv davranışı şəklində özünü göstərir. Bu kontekstdə aqressiv davranış törədən şəxsə *buller*, aqressiv davranışa məruz qalan şəxsə isə *bullinq qurbanı* (yaxud *qurban*) deyilir (Barhight və b. 2013, 375).

Tədqiqatın əsaslandırılması

Uşaqlar arasında aqressiv davranış və bullinq qlobal miqyasda vacib problem olduğu kimi lokal olaraq, ölkə səviyyəsində də ciddi yanaşma tələb edir. Uşaqlar arasında qeyd olunan problemin müxtəlif səbəbləri və gələcəkdə ortaya çıxa biləcək fəsadları mövcuddur. Ancaq həmin səbəblər və fəsadlar kifayət qədər tədqiq edilməmişdir. Bunları bilmədən və aşkarlamadan isə bir həll yolu tapmaq və gedişata müdaxilə etmək mümkün görünmür. Mövcud vəziyyətdə Bakı məktəblərində yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəb və formaları öyrənildikdən sonra tədqiqat və faktlara əsaslanaraq zəruri qərarlar verib müdaxilə etmək olar.

Bundan əlavə, PISA çərçivəsində aparılan sorğulara uşaqların verdikləri cavablar, xəbərlərə düşən bullinq halları təhsilverənləri, valideynləri, uşaqlarla işləyən qurumları narahat edir və nəticəyönümlü tədqiqatların aparılmasını labüd edir. Son PISA (2023) nəticələrinə görə, uşaqların böyük əksəriyyəti məktəbdə özlərini arxayın və təhlükəsiz deyil, əksinə, narahat və təhlükələrə qarşı zəif hiss edir. İnkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələrdə, o cümlədən PISA qiymətləndirməsinə qoşulan ölkələrdə bullinq ölkə səviyyəsində müzakirə edilən mövzulardan biridir. Çünki bu ölkələr vəziyyəti üçüncü gözlə görmək və digər ölkələrlə müqayisə aparmaq imkanı əldə edirlər. Azərbaycanda da son illər, xüsusilə də 2019-cu ildən bəri bullinq önəmli müzakirə mövzularından birinə çevrilmişdir. Bu istiqamətdə ölkədə müxtəlif layihələr icra olunmuş, müxtəlif təşəbbüslər qrantlarla dəstəklənmiş və qurumların birgə əməkdaşlığı ilə sosial çarxlar çəkilmişdir. Bu illər ərzində ölkədə müxtəlif üsullarla maarifləndirmə işləri aparılmışdır.

Ancaq bu yanaşmaların tam effektiv olduğunu demək çətindir. 2023-cü ildən isə Elm və Təhsil Nazirliyi "Ümumi təhsil müəssisələrində uşaq davranış qaydaları" hazırlayaraq məktəblərdə tətbiq etməyə başlayıb. Bütün bunlar yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın ölkəmizdə aktual məsələ olduğunu göstərir. Görülən işlərlə yanaşı, görülməli olan işlər də kifayət qədərdir və bu tədqiqat da öz növbəsində görülməli işlərdən birini – bullinqlə bağlı mövcud vəziyyətin öyrənilməsini və həll yollarını əhatə edir.

Bu tədqiqat 13-17 yaşlı uşaqlar arasında bullinq tipli davranışları araşdırmaqla təhsil işçilərinə, valideynlərə və təhsil siyasətinin qurucularına köməklik etmək potensialına malikdir. Mütəxəssislər bu tədqiqat hesabatından istifadə edərək mövcud vəziyyətə müdaxilə üsullarını, təkmilləşdirmə və profilaktik tədbirləri müəyyən edə bilərlər. Müsbət və sağlam psixoloji mühit yaratmaqla həm yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısını müəyyən qədər almaq, həm də onun fəsadlarını azaltmaq mümkündür.

Tədqiqatda bu suallara cavab axtarılır:

– Bakı məktəblərində 13-17 yaşlı uşaqlar arasında bullinq törətmə və bullinq qurbanı olma səviyyəsi neçə faizdir?

– Yetkinlik yaşına çatmayanlar aqressiv davranışın daha çox hansı növlərinə məruz qalır və hansı növlərinə əl atırlar?

– Uşaqlar bullinqlə necə mübarizə aparırlar və nə dərəcədə məlumatlıdırlar?

– Mütəxəssislər yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəblərini, nəticələrini və həll yollarını nələrdə görürlər?

Elmi ədəbiyyatda bullinq və onunla mübarizə üsulları

Bullinqə konseptual baxdıqda müxtəlif təriflərlə qarşılaşırıq. Bullinq əsasən güclü bir şəxsin özündən nisbətən zəif şəxsə (fiziki, verbal və ya psixoloji) zərər vurmaq məqsədilə ona qarşı təkrarən, qəsdən sərgilədiyi aqressiv davranışları və istismar aktlarını əhatə edir (Olweus, 1993). Bullinq törədən şəxsin gücü ifadəsi ilə təkcə fiziki güc nəzərdə tutulmur, bu söz ümumiyyətlə üstünlük mənasında işlədilir. Məsələn, yaxşı oxuyan bir uşağın zəif oxuyan məktəbliyə, hündürboy uşağın qısaboya, sağlam uşağın sağlamlıq imkanları məhdud olan uşağa qarşı bullinq törətməsi bu çərçivədə götürülür. Qeyd edək ki, təsadüfən və istəmədən verilən zərər bullinq hesab olunmur. Burada yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qəsdən törədilməsi əsasdır. Əgər verilən zərərə qarşı tərəf cavab verə bilirsə və bullinq dayanırsa, deməli, bu, nizam-intizam xətası olsa da, bullinq deyil. Bullinqdə aqressiv davranışların təkrar törədilməsi, qarşı tərəfin isə bullinqə cavab verə bilməməsi və qurbana çevrilməsi əsas məqamlardır.

Elmi ədəbiyyatda yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın müxtəlif növləri izah olunub, onlara geniş təriflər verilib. Bunlardan biri fiziki bullinqdir. Bu bullinq növündə buller qurbana fiziki təzyiqlə: vuraraq, itələyərək və ya başqa bir formada xəsarət yetirir, zərər verir və onu narahat edir. Bu bullinq növünü müəyyən etmək asandır, çünki bədəndə qalan simptomlar: göyərti, qızartı, ağrı və s. bullinqin vaxtında aşkarlanmasını mümkün edir və lazımi müdaxiləni etməyə imkan yaradır.

Bullinq növlərindən biri də verbal bullinqdir. Bu bullinqdə buller qurbanını hansısa bir xüsusiyyətinə görə sözlə ələ salır, ona təhqiramiz ləqəb qoşur, təhqir və təhdid edir. Burada da bullinqin tərifinə uyğun olaraq hərəkətin təkranlanması, qəsdlə olması və qarşı tərəfin özünü müdafiə edə, cavab qaytara bilməməsi əsasdır. Verbal bullinq bəzən pis oxumağa, bəzən fiziki fərqliliyə, bəzən də hətta dərsləri yaxşı oxumağa görə olur. Bütün bullinq növlərində olduğu kimi burada diqqət çəkən məqam bir tərəfin digələrindən fərqli olmasıdır. Bu fərq ümumən müsbət və ya mənfi ola bilər. Verbal bullinqin isə araşdırmalarda ən çox toxunulan formaları hədələmə və qorxutmadır. Burada buller qarşı tərəfi döyməklə, şantaj etməklə, haqqında pis xəbər yaymaqla, qrupdan tədric etməklə hədələyir. Göründüyü kimi, bullinqin növləri bir-biri ilə əlaqəlidir. Qurbanı başqa bir bullinq növü ilə təhdid etmək də öz-özlüyündə elə bullinqdir.

Sosial bullinqdə isə bir nəfər və ya qrup qurbanı özündən təcrid edir, müxtəlif səbəb, bəhanə və şayiələrlə qrupa yaxın qoymur. Sosial bullinqə məruz qalan qurban özünü tənha hiss edir ki, bu da onda aqressiv davranışlar, depressiv hallar, gücsüzlük, zəiflik, aşağılıq kompleksi şəklində özünü göstərir. Sosial bullinqin qarşısını almaq üçün məktəblərdə növbətçilik sistemi tətbiq olunur. Belə ki, müəllimlər uşaqların asudə vaxtlarında onlarla oyun prosesinə qoşulur və hamının iştirakını təmin edərək sosial bullinqə mane olurlar. Uşaqlar başqa bir uşaq haqqında şayiə yayır, ona böhtan atırlarsa, bu artıq həyəcan təbilinin çalınması deməkdir. Bu zaman tərəflərlə xüsusi görüşülür, ayrı-ayrılıqda söhbət aparılır, lazımi xəbərdarlıqlar edilir. Hərəkətlər təkrarlanarsa, valideynlərlə əlaqə saxlanılır və nizam-intizam tədbirləri görülür.

Müasir dövrdə internetin əlçatanlığının artması və sosial media yeni bir bullinq növünü ortaya çıxarır ki, bu da kiberbullinqdir. Kiberbullinq digər bullinq növlərindən fərqli və nisbətən daha təhlükəlidir. Çünki bu bullinq növünü müəyyən etmək daha çətindir, üstəlik daha ağır fəsadlara gətirib çıxarır. Kiberbullinq internet mühitində müxtəlif vasitələrlə qurbanın şəxsi məlumatlarının əldə olunması, şantaj edilməsi, şəkil və ya videolarının çəkilməsi və tələb edilməsi, təhqir və təhdid edilməsi hallarını ehtiva edir. Kiberbullinqi verbal və sosial bullinqin virtual mühitə yansımış forması da adlandırmaq olar. Ancaq kiberbullinq bəzən gizli törədilir və qurbanı ağır fəsadlara gətirib çıxaran əməllərə məcbur edir.

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın fəsadları

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın hər iki tərəfə: qurban və bullerə aid təsir və fəsadları elmi ədəbiyyatda təhlil olunub. Gini və Pozzoli tədqiqatında uzunmüddətli bullinq nəticəsində qurbanların depressiyaya düşdüyünü, daim ifrat həddə narahatlıq keçirdiklərini, özünəinam və özünədəyər səviyyəsinin aşağı düşdüyünü ortaya çıxarıb. Bu psixi durum təbii olaraq onların sağlamlığına mənfi təsir göstərib, müəyyən problemlərə gətirib çıxarıb. Həmçinin bullinq qurbanlarının intihar riskinin daha yüksək olduğu müəyyən edilib. Bullinq uşaqların akademik nəticələrinə mənfi təsir edib və onların dərslərdə fəal iştirak etmələrinə mane olub. Bütün bunlar isə onların gələcəkdə uğur qazanmalarına mənfi təsir göstərib (Gini və Pozzoli, 2013).

Bullinq davranışlarının bullerlərə də müxtəlif təsirləri mövcuddur. Bu davranışların qarşısı alınmadıqda və bullerlərlə düzgün iş aparılmadıqda müxtəlif fəsadlar qaçılmazdır. Belə ki,

bullinq törədən uşaqların müxtəlif psixoloji və psixi xəstəlikləri ola bilər ki, bu da terapiya tələb edir. Terapiya işi vaxtında aparılmadıqda bullinq davranışları daha pis davranışlara, cinayət və təcavüz əməllərinə çevrilə bilər. Yekunda isə bu tip uşaqların məktəbdən kənarlaşdırılması, xuliqanlıq etməsi, əmlaka zərər yetirməsi hallarına rast gəlinir (Ttofi və b., 2011).

Bullinq davranışlarının fərdlərə mənfi təsirləri olduğu kimi, ümumən cəmiyyətə də zərərləri mövcuddur. Bullinqə məruz qalan uşaqların səhiyyə xidmətlərinə nisbətən daha çox ehtiyacları olduğu aşkarlanıb. Bu isə onların səmərəli, məhsuldar çalışmasına mənfi təsir edir. Beləcə bullinq dolayısı ilə iqtisadiyyata da mənfi təsir edir. Səhiyyə xərclərinin artması, iş məhsuldarlığının düşməsi iqtisadiyyatla birbaşa əlaqəlidir. Məktəblərdə isə bu daha çox uşaqların akademik nəticələrinin aşağı düşməsi və nizam-intizam pozuntuları şəklində özünü göstərir (McDaid və b., 2017).

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri

Tədqiqat nəticələrində də görünür ki, bullinq sadəcə bir məkanda baş vermir. Bullinqə cəmiyyət həyatının istənilən mərhələsində və istənilən məkanda rast gəlmək mümkündür. Məhz ona görə də yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri də bir məkanda axtarılmamalıdır. Ümumi təsnifatda bullinqi meydana gətirən amillər aşağıdakı kimi qruplaşdırıla bilər:

- Fərdi amillər
- Ailə amilləri
- İctimai amillər
- Ətraf mühit amilləri

Bəzi fərdlərdə rast gəlinən empatiya hissinin zəifliyi, impulsivlik və aqressivlik kimi xarakter xüsusiyyətləri bullinqə əlverişli zəmin yardır. Fərdin digər bir fərddən güclü, ağıllı, yaraşıqlı və ya gözəl olması da onu bullinqə sövq edə bilir (Olweus, 1993). Bundan əlavə, özünəhörmət hissi aşağı olan və ya bullinqə məruz qalmış uşaqlar da qurban olma riski altındadırlar (Salmivalli və b., 2008).

Bullinqə zəmin hazırlayan amillərdən biri də ailədir. Həddən artıq sərt və ya tam əksinə laqeyd valideynlərin uşaqları da qurban və ya buller olma riski daşıyırlar (Gaffney və b., 2013). Bununla yanaşı, ailəsində məişət zorakılığı və bullinq görən uşaqların bullinqə məruz qalma və ya bullinq davranışları törətmə ehtimalı daha çoxdur (Buehler və Crick, 2003). Evdə bullinq və ya münaqişə mühitinin olması uşaqlar arasında bu davranışları legitimləşdirir (Espelage və b., 2012). Uşaqlar evlərində münasibətlərin formalaşması prosesini görüb-götürür və bənzər davranışları imitasiya edərək fərqli situasiyalarda təkrarlayırlar. Uşaqların təhtəlşüuru erkən yaşlardan formalaşmağa başlayır, bullinq də sonradan şüuraltının söz və davranışlarda əksi kimi ortaya çıxır, gündəlik xarakterin bir hissəsinə çevrilir.

Bəzən isə fərdi və ailə problemləri olmasa belə, bullinq uşaqlar arasında bir davranış biçimi şəklində özünü göstərir. Çünki insanın yetişməsinə onun ətrafı da təsir edir. Bu baxımdan uşaqların bullinqi bir-birindən öyrənməsi halları müşahidə olunur. Öz yaşıdlarının qrupundan təcrid edilən uşaqlar bullinqə məruz qalma və ya intiqam hissi ilə bullinq törətmə riski daşıyırlar (Nansel

və b., 2001). Bundan əlavə, irq, etnik mənsubiyyət, ləhcə, aksent, hər hansı bir məhdudiyyət və dil kimi xüsusiyyətlərə görə ayrı-seçkiliyə məruz qalan uşaqlar da bullinq qurbanı olma riski altındadırlar (Craig və b., 2000).

Uşaqların ətrafındakı insanlar (yuxarı sinif uşaqları, böyüklər, məhəllə dostları və s.) onların davranışlarına müsbət və mənfi yöndə təsir edir. Ona görə də bullinqə qarşı ayıq-sayıq olmaq, uşaqların inkişafını, münasibətlərini, mühitini nəzarətdə saxlamaq çox vacibdir. Nəzarət olmayan mühitlərdə yetişən uşaqlar bullinqə meyilli insanların təsirinə düşə bilir. Vaxtında müdaxilə edilmədikdə ətraf mühitin təsiri ilə bullinq davranışı qaçılmaz olur (Wang və b., 2009). Bundan əlavə, aqressiv davranışın tərifləndiyi, qəhrəmanlıq sayıldığı, rəğbət gördüyü mühitlərdə yetişən uşaqların bullinq törətmə ehtimalı yüksəkdir (Craig və b., 2000). Əgər bir mühitdə bullinq məqbul qarşılanırsa, bu tip davranışların tez-tez baş vermə ehtimalı daha çox olur (Salmivalli, 2010). Məktəbdə nəzarətsizlik və nizam-intizamsızlıq bullinq davranışlarının artmasına şərait yaradır (Bradshaw və b. 2009).

Uşaqların psixoloji durumları da bullinqə zəmin hazırlayan amillər arasındadır. Erkən yaşlardan uşaqlarda empatiya hissinin inkişaf etdirilməməsi, mütəmadi olaraq qorxu hissi ilə nəzarətdə saxlanması onları bullinqə sövq edir (Sutton və Smith, 1999).

Uşaqlarda genetik faktorlar səbəbindən, həmçinin hansısa xəstəlikdən bəzən emosional disbalans yaşanır. Bu disbalans və pozuntu onları bullinq davranışlarına sövq edir. Çünki xəstəlik və s. səbəblər həmin uşaqların öz hisslərini nəzarətdə saxlamasını çətinləşdirir (Cook və b., 2010). Psixoloji inkişafı normal getməyən uşaqlar bəzən dominant olmağa, zorakılıq etməyə özlərində haqq görürlər və bu səbəblə də bullinq davranışlarına bəraət qazandırmağa çalışırlar. Onlar aqressiv davranışlara sadəcə özlərini qorumaq üçün əl atdıqlarını düşünürlər (Perren, və Gutzwiller-Helfenfinger, 2012).

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın yeni növü olan, çətin müəyyən edilən və ağır fəsadlara gətirib çıxaran kiberbullinqə isə son dövrlərdə daha çox rast gəlinir. Virtual mühitdə insanlar özlərini daha sərbəst və nəzarətsiz hiss edirlər. Ona görə də anonim və saxta hesablarla məsulliyyətsiz davranışlara əl atır, müxtəlif formalarda bullinq əməlləri törədirlər (Slonje və Smith, 2008). Kiberbullinq törədənlər vaxt və məkan məhdudiyyəti olmadan özlərinə qurban tapa və zərər yetirə bilirlər (Patchin və Hinduja, 2015). Bu səbəblərdən uşağı əhatə edən ailə və məktəb bir-biri ilə əməkdaşlıq edərək kiberbullinqə qarşı daha kompleks profilaktik tədbir görməlidir.

Bullinqlə mübarizə üçün elmi ədəbiyyatda müxtəlif yanaşma və təkliflər irəli sürülür. Bunların başında konkret qaydalar, ardıcıl nəticələr, işçi heyəti üçün təlim və sosial-emosional bacarıqların inkişafı gəlir (Ttofi və Farrington, 2011). Çünki bütün insanlar kimi uşaqlar da hansı davranışların səhv olduğunu əvvəlcədən bilməli və həmin səhv davranışların hansı mənfi nəticələrə aparıb çıxaracağını dərk etməlidir. Məktəblərin işçi heyəti isə bütövlükdə hansı davranışların bullinq olduğunu bilməli, bullinqi necə müəyyən edəcəyini və necə müdaxilə etməli olduğunu anlamalıdır. Profilaktik olaraq isə hörmət, inklüzivlik və müsbət ab-hava, hamının məktəbi nəzarətdə saxlaması və işlərin qaydasında getməsinə kömək etməsi bullinq davranışlarının qarşısını alır (Gaffney və b., 2019).

Həddi-büluğ dövründə uşaqların bir-birinə təsiri müəllim və valideynlərin təsirindən daha çox olur. Ona görə də elmi ədəbiyyat həmyaşıdların dəstəyini və mentorluğunu yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısını almaqda effektiv bir üsul kimi təklif edir. Uşaqların mentorluq, mediatorluq, bullinqin səbəbləri və fəsadları kimi məsələlərlə əlaqədar maariflənməsi onların yanaşmalarını dəyişdirə bilir (Johnson və Johnson, 2004). Burada səriştəli, bacarıqlı və dominant uşaqların prosesə cəlb edilməsi, onların bullinqlə mübarizə prosesinə liderlik etməsinə şərait yaradılması effektiv metod hesab olunur (Salmivalli, 2010).

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınmasında valideynlərin iştirakının təmin edilməsi elmi ədəbiyyatda xüsusi vurğulanır. Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəb və nəticəsi valideynlə əlaqədardır və həll prosesi də onlarsız mümkün görünmür (Kowalski və b., 2014). Çünki uşaqların müsbət sosial davranış modellərinə, münaqişələrin həlli nümunələrinə ehtiyacları var. Onlar müşahidə yolu ilə öyrənirlər (Espelage və b., 2012). Burada valideynlərin mütəmadi maarifləndirilməsi, onların övladları ilə söhbət aparması, birgə mütaliə və oyun fəaliyyətləri təşkil etməsi kimi məqamlar önəmlidir. Valideynlər məktəb və region səviyyəsində hazırlanan strateji planların, təhsil siyasətinə (qanun, proqram və s.) dair sənədlərin hazırlanmasına da töhfə verə bilərlər. Beləcə, qərarların verilməsi prosesində fəal iştirak etdiklərinə görə özlərini daha dəyərli hiss edər və prosesə ürəkdən dəstək olarlar (Hong və Espelage, 2012).

Bütün humanist yanaşmalarla yanaşı, məktəb ərazisində və məktəbdən kənarda bullinq davranışları ilə əlaqədar qanunların hazırlanmasına da ciddi ehtiyac var. Çünki bir qisim uşaqlar üçün yalnız çəkindirici cəza tədbirləri effektiv olur (Hinduja və Patchin, 2015). Xüsusilə də 14 yaşından yuxarı hər bir insan davranışlarına görə hüquqi məsuliyyət daşıdığını bilməlidir. Ona görə də bullinq davranışlarının müxtəlif növlərinə dair hüquqi status müəyyən olunmalıdır (McCallion və Feder, 2013).

Bütün bunlarla yanaşı, bullinqlə mübarizə üsulları ilə əlaqədar xüsusi vurğulanan məsələlərdən biri də tədqiqatdır. Tədqiqatlar təhsilin maraqlı tərəflərinin məlumat toplamasına, məlumatın təhlilinin aparılmasına imkan yaradır. Tədqiqatlar həm məktəb miqyasında, həm də geniş miqyasda data əsaslı qərar verməyə zəmin yaradır. Ona görə də təhsil idarəçiləri və məktəb psixoloqlarının tədqiqat səriştələrinin olması əhəmiyyətlidir. Tədqiqat apararkən eksperimental qruplar quraraq müəyyən proqramlar tətbiq etmək və nəticələri digərləri ilə müqayisəli formada yoxlamaq tövsiyə edilir. Beləcə, hansı yanaşmaların daha effektiv olduğunu müəyyən etmək mümkündür (Polanin və b., 2012). Bu kimi qısamüddətli tədqiqatlarla yanaşı, uzunmüddətli qiymətləndirmə aparmaq və nəticələri izləmək də vacibdir (Ttofi və Farrington, 2011).

İndiyə qədər hazırlanan mübarizə tədbirləri və proqramlarının bir qismi effektiv olub bullinq səviyyəsinin azalması ilə nəticələnib. Burada kontekstual məsələlər nəzərə alınmalı olduğundan, hər effektiv proqram bütün kontekstlərdə eyni nəticəni göstərmir (Gaffney və b. 2019). Ancaq tətbiq olunan mübarizə proqramını bütün məktəb heyəti bilməli, bütün addımlara sadiq qalmalı və davamlı, israrlı formada işin üzərində dayanmalıdır (Yeager və b., 2015).

Bullinqlə mübarizə tədbirləri nə qədər çox olsa da, onların effektivliyinə xələl gətirən səbəblər də mövcuddur. Xüsusilə, insanların şəxsi qərəz və təşəbbüslə çıxış etmələri, məsələyə yanlış müdaxilələri bullinqlə mübarizəyə ən böyük əngəldir. Təhsil tərəflərinin öyrəşdikləri klassik

yanaşmalar çox zaman prosesi daha da mürəkkəbləşdirir. Burada data əsaslı elmi yanaşma, həmçinin ahəngdarlıq əsasdır.

Ölkədə bullinqlə bağlı cari vəziyyət

Azərbaycanda bullinqlə əlaqədar araşdırmalar məhduddur. Bunlardan biri PISA-nın nəticələridir. PISA İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD-İƏİT) üzv olan və olmayan ölkələrdə təhsilin vəziyyətini öyrənən və 3 ildə bir hesabat yayımlayan beynəlxalq uşaq qiymətləndirmə proqramıdır. Bununla ölkələr öz vəziyyətlərini görə bilir və növbəti addımlarında bu hesabatlardan istifadə edir.

PISA 2022-nin hesabatları göstərir ki, performansın yüksək olduğu və uşaqların mənsubluq hissinin yaxşılaşdığı təhsil sistemlərində uşaqlar özlərini daha təhlükəsiz hiss edir, məktəbdə bullinqə və digər təzyiqlərə daha az məruz qalırlar. PISA-nın nəticələrinə görə, Bakıda uşaqların 23%-i məktəbə gedərkən özlərini təhlükəsiz hiss etmədiklərini bildiriblər, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) bu mövzu üzrə ortalaması isə 8%-dir. Uşaqların 20%-i məktəbin sinif otaqlarında özlərini təhlükəsiz hiss etmədiklərini bildiriblər ki, bu mövzuda da İƏİT üzrə ortalama 7%-dir. Uşaqların 23%-i məktəbin müxtəlif bölmələrində (məsələn, dəhliz, yeməkxana, sanitar qovşaq) özlərini təhlükəsiz hiss etmədiklərini bildiriblər və bu da ümumi ortalamadan 13% çoxdur. Eyni tədqiqatın nəticələrinə görə, uşaqların 21%-i ayda ən azı bir neçə dəfə bullinq hərəkətlərinin qurbanı olurlar. Bu nəticələr bullinq məsələsini ölkədə daha aktual hala gətirir, geniş araşdırmaları və zəruri tədbirləri labüd edir.

Tədqiqatda istifadə olunan metodologiya

Bu tədqiqat Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Bakı Şəhər Təhsil İdarəsinin tabeliyində olan məktəbləri əhatə edir, həmin məktəblərdə təhsil alan 13-17 yaşlı uşaqlar arasında aqressiv davranışları və bullinqi tədqiq edir. Bu tədqiqatda qarışıq, yəni keyfiyyət və kəmiyyət üsulundan birgə istifadə olunmuşdur. Qarışıq tədqiqatlarda üç yanaşma mövcud olur. Bunlardan ikisində kəmiyyət və keyfiyyət, keyfiyyət və kəmiyyət ardıcıllığı izlənilir. Digərində isə iki yanaşma eyni anda, sinxron tətbiq olunur. Bu tədqiqatda isə kəmiyyət, sonra isə keyfiyyət ardıcıllığı qorunub. Birinci mərhələdə tədqiqatın kəmiyyət komponenti çərçivəsində aqressiv davranış və bullinq təcrübələrinin yayılmasını qiymətləndirmək üçün 13-17 yaşlı uşaqlar arasında sorğu keçirilib. Sorğuda 5-li likert tipli anketdən istifadə edilib.

Bu anket 5 cavabı olan, tədqiqatda iştirak edənlərin 5-dən 1-ni seçdiyi qapalı anket növüdür. Tədqiqatda istifadə olunan anket müxtəlif elmi ədəbiyyatlar əsasında hazırlanıb və Azərbaycan təhsil sisteminə uyğunlaşdırılıb. Suallar Azərbaycan dili mütəxəssisinə redaktə və korrektə etdirilib, düzgün anlaşıldığını yoxlamaq üçün sınaq olaraq 10 nəfərin iştirakı ilə yoxlanılıb. Bundan sonra anlaşılmaz və təkrar suallar düzəldilib və ya çıxarılıb. Əldə olunan məlumatlar Bakı məktəblərindəki problemin əhatə dairəsi haqqında məlumat verib və bu cür davranışla bağlı potensial risk faktorlarını müəyyən edib.

İkinci mərhələdə əldə olunan keyfiyyətə dair məlumatlar isə yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın əsas səbəblərini və nəticələrini daha dərindən anlamağa imkan verir. Bu çərçivədə yarımstrukturlaşdırılmış müsahibə forması ilə yeniyetmələrlə iş təcrübəsi olan mütəxəssislərdən (psixoloq, psixiatr, məktəb psixoloqu) müsahibə alınıb. Bu müsahibələr bullinq tipli davranışların motivlərini, yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qurbanlara təsirini və effektiv müdaxilə strategiyalarını tədqiq etmək məqsədi daşıyır.

Bu tədqiqat həm kəmiyyət, həm də keyfiyyət metodlarının nəticələrini birləşdirərək Bakıda yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış, bullinq haqqında hərtərəfli təsəvvür yaratmağa çalışır. Tədqiqatın nəticələri təhsilin bütün tərəflərini, o cümlədən müəllimləri, təhsil idarəçilərini və təhsil psixoloqlarını təhlükəsiz və müsbət məktəb mühiti yaratmaq məqsədi ətrafında daha sıx birləşdirə və onların tədbir görmələrinə bələdçilik edə bilər.

ƏLDƏ OLUNAN MƏLUMATLAR

Kəmiyyət yanaşması ilə əldə olunan məlumatların təhlili

Tədqiqatın kəmiyyət mərhələsində Bakı Şəhər Təhsil İdarəsininin nəzdindəki 12 rayonda yerləşən məktəblərdə sorğu keçirilib. Sorğuda 13-17 yaş aralığında 2351 uşaq iştirak edib. Bu uşaqlar Bakıda təhsil alan 13-17 yaşlı 210104 məktəblinin arasından təsadüfi yolla seçilib. Əldə olunan məlumatlar cədvəllərlə xülasə edilib. Bir qisim cədvəllərdə qeyd olunan $\bar{x}$ işarəsi 5 ballıq şkalada şagirdlərin cavablarının ədədi ortasını göstərir. Hər bir cədvəldə "Nisbət" sütununun altında qeyd olunan rəqəm həmin sətirdəki uşaqların ümumi uşaqların sayına olan nisbətini, "N" isə həmin uşaqların sayını göstərir. Onların yaş olaraq paylanma faizi aşağıdakı kimidir:

Cədvəl 1

Yaşa görə paylanma

Uşaqların yaşı	Nisbət (%)	N
13	32.3	760
14	25.5	599
15	22.2	521
16	15	353
17	5	118

Qeyd. N = 2351



Sorğuda iştirak edənlərin 42.5%-i cinsiyyət sualına kişi, 56%-i isə qadın cavabını verib. Yaşlarına uyğun olaraq uşaqların 26.6%-i 7-ci sinifdə, 25.3%-i 8-ci sinifdə, 26.7%-i 9-cu sinifdə 14.9%-i 10-cu sinifdə, 6.6%-i isə 11-ci sinifdə təhsil alır. Uşaqların rayonlar üzrə paylanması Cədvəl 2-də verilib.



Cədvəl 2		
Rayonlara görə paylanma		
Rayonlar	**Nisbət (%)**	**N**
Xəzər	26.7	658
Binəqədi	15	352
Nəsimi	10.9	257
Sabunçu	9.3	218
Səbail	8.3	196
Xətai	7.9	185
Nizami	7	164
Nərimanov	5	118
Yasamal	3.3	77
Qaradağ	3.1	73
Suraxanı	1.6	38
Pirallahı	0.6	15
Qeyd. N = 2351		

Bu məlumatların ardından 5-li likert tipli anket sualları verilib və cavablar 1 - qətiyyən razı deyiləm, 2 - razı deyiləm, 3 - qərarsızam, 4 - razıyam, 5 - tamamilə razıyam balları ilə qiymətləndirilib. 63 sualdan ibarət bu anketdə suallar "bullinqə məruz qalmaq, bullinq törətmək, uşaqların bullinqə qarşı münasibətləri, bullinqlə mübarizə formaları, bullinqin uşaqlara təsirləri" mövzularını əhatə edib. Son bir ayda təhqir olunmaqla bağlı suala uşaqların cavab ortalaması 5 bal üzərindən 1.6 olub. Bu isə ümumi vəziyyətin qənaətbəxş olduğunu, lağa qoyma, təhqir etmə hallarının azlığını göstərir. Statistik olaraq, təhqir olunduğunu qeyd edən uşaqların faizi 7.1%-dir. 8.3% isə qərarsız olub. Fiziki bullinqə məruz qaldıqlarını qeyd edən uşaqların faizi isə 4.9%-dir. Burada qərarsız olanlar isə 4.1% təşkil edir. Təpikləmə, itələmə kimi fiziki bullinq davranışlarının ortalamasının 1.41 çıxması yenə bu halların statistik olaraq minimal olduğunu

göstərir. Hədələmə, qorxutma, əşyasını götürmə, pul istəmə kimi aqressiv davranışın, internetdə bənzər davranışların ortalama balları yenə 1-2 % arasında dəyişir. Bu göstəricilər bu tip hallarla üzləşən uşaqların kiçik bir faizi (1-7%) təşkil etdiyini göstərir.

Bullinqə məruz qalma halları siniflər arasında statistik olaraq əhəmiyyətli fərq göstərmir. Lakin 7 və 8-ci siniflərdə bullinq hallarının 9-cu sinifdən çox olduğu müşahidə edilir. Digər tərəfdən 11-ci sinifdə bullinq halları 10-cu sinifdən çox görünür. 11-ci siniflərdə əsasən verbal və kiber bullinqə yol verilir. Kiberbullinq isə yuxarı siniflərdə kiçik bir artım göstərir.



Cədvəl 3		
Siniflərə görə paylanma		
Siniflər	**Nisbət (%)**	**N**
7-cilər	26.6	625
8-cilər	25.3	594
9-cular	26.7	627
10-cular	14.9	350
11-cilər	6.6	155
Qeyd. N = 2351		

Cədvəl 4		
Siniflərə görə bullinq ortalaması və nisbət		
Siniflər	**Nisbət (%)**	**x̄**
7-cilər	8.5	1.34
8-cilər	8.75	1.35
9-cular	7.75	1.31
10-cular	8	1.32
11-cilər	12.25	1.49
Qeyd. N = 2351		

Bullinq davranışlarının sərgilənməsi ilə bağlı statistika bir qədər fərqlidir. Belə ki, hər beş uşaqdan biri lazım gəldikdə bullinqə qarşılıq verdiyini qeyd edib. Bu da 18%-dir. Bullinq davranışı göstərdiyini qeyd edən uşaqların ortalama balı 1.38-dir. Birbaşa fiziki bullinqə əl atdığını bildirənlər azlıq təşkil etsə də, özünümüdafiə niyyəti ilə adekvat cavab verdiyini qeyd edənlər çoxluq təşkil edir. Yoldaşlarını hədələdiyini, qorxutduğunu, əşyalarını götürdüyünü, şəxsi əşyalarına zərər verdiyini, kiberbullinq etdiyini qeyd edən uşaqların statistikası 1-5 % arasında dəyişir. Ortalama balı az olsa da, bu hallar faiz etibarilə daha çox uşaq arasında baş verir.

Cinsiyyət amili ilə bullinq hallarının əlaqəsi araşdırılıb və müəyyən edilib ki, qızlar oğlanlara nisbətən daha az bullinqə məruz qalırlar. Ancaq göstərilən bu fərqlərin korrelyasiya əmsalı kiçikdir (0.09). Məlumdur ki, korrelyasiya -1 ilə 1 arasında olan bir ədəddir və 1-ə yaxınlaşdıqca müsbət korrelyasiyanın olması artır. Bu situasiyada qadın və kişi olmaq bullinqə məruz qalmağa yüksək səviyyədə təsir etməsə də, zəif müsbət korrelyasiya mövcuddur.

Cədvəl 5

Cinsiyyətə görə paylanma və ortalama

Uşaqların yaşı	Nisbəti (%)	N	x̄
Qadın	56	1316	1.38
Kişi	44	1000	1.29

Qeyd. N = 2316



Bullinq törətməklə bağlı vəziyyət oxşar xarakter daşıyır. Kişi cinsinə mənsub uşaqlar digər variantlarla müqayisədə daha çox bullinq törətsələr də, bu fərq statistik cəhətdən əhəmiyyətli deyil.

Tədqiqat zamanı uşaqlardan bullinqlə bağlı müşahidələri soruşulub və onların cavabları aşağıdakı cədvəldə verilib.

Cədvəl 6

Uşaqların bullinqlə rastlaşma tezliyi

Siniflər	Nisbəti (%)	N
Hər gün	8.3	195
Hər həftə	8.75	205
Hər ay	15	352

Uşaqların müşahidələrinə görə bullinq daha çox küçədə baş verir. Belə ki, uşaqların 28%-i bullinq hallarının küçədə, 16.5 %-i isə daha çox məktəbdə baş verdiyini qeyd edib. 6.2 % uşaq isə bullinq hallarının daha çox evdə yaşandığını bildirib. Uşaqların ikinci böyük bir qismi, yəni 17.9%-i isə bullinq hallarının daha çox virtual mühitdə, internetdə baş verdiyini qeyd edib.

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri ilə bağlı soruşulan suallara uşaqlar aşağıdakı kimi cavab veriblər:

Cədvəl 7		
Bullinqin səbəbləri		
Siniflər	**Nisbət (%)**	**N**
Qız üstündə	18.3	430
Oğlan üstündə	10.1	235
İnsanlar əsəbi olduğu üçün	41.9	985
Paxıllıq, gözü götürmədiyi üçün	38.1	895
Güclərini göstərmək üçün	37.9	891

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınması məsələsində uşaqlar həmfikirdir. Belə ki, mövzu ilə əlaqədar verilən suala uşaqların cavablarının ortalaması 4.7-dir. Onların 86.2%-i bullinqin qarşısının alınmalı olması ilə bağlı suala "razıyam" və "tamamilə razıyam" cavablarını veriblər. Uşaqların bullinqə məruz qaldıqda verdikləri reaksiya da tədqiqatın araşdırdığı məsələlər arasındadır. Həmin sualların cavabı aşağıdakı cədvəldə xülasə olunmuşdur:

Cədvəl 8		
Bullinqə qarşı uşaqların reaksiyaları		
Uşaqların reaksiyaları	**Nisbət (%)**	**N**
Bullinqə məruz qaldıqda nə etməli olduğumu bilmirəm.	17.4	409
Valideynlərimə bildirirəm.	56.1	1318
Müəllimlərimə bildirirəm.	55.9	1314
Bullinq edən insanla danışıram.	29.4	691
Bullinq edərək qarşılıq verirəm.	11	258
Yoldaşlarımdan kömək istəyirəm.	30.3	712
Kimdənsə kömək istəməyə çəkinirəm.	11.5	270

Uşaqların bullinqə münasibəti tədqiqat üçün vacib məsələlərdən biridir. Buna görə də uşaqlara birini ələ salmağın, lağa qoymağın onların xoşuna gəlib-gəlmədiyi soruşulub və 94%-i bununla razı olmadıqlarını, belə hərəkətdən xoşları gəlmədiyini qeyd edib. Digər tərəfdən uşaqların 20.5%-i "Bəzilərinə güc tətbiq etmək lazımdır" fikri ilə razı olduqlarını bildirib, əksəriyyəti (93.1%) birini yamsılayaraq ələ salmağın doğru bir davranış olmadığını, bir qismi isə sinif yoldaşlarının inciməsini problem kimi görmədiklərini qeyd edib (6.5%).

Sosial mediada tanıdığı və tanımadığı insanları təhqir etməyi düzgün hesab edən uşaqların sayı isə minimal səviyyədədir: 2.2%. Kobud rəftardan xoşu gələn uşaqlar isə cəmin 5.5%-ini təşkil edir. Xüsusilə "dərsini vermək" anlayışına uşaqların rəğbət duyduğu görünür. Onların 15%-i bir qisim yoldaşlarına "dərs vermə"yi vacib hesab edir. Belə fikirləşən uşaqlar arasında güclü olmağı vacib sayan uşaqların nisbəti 33.6%-dir. Bəzi uşaqların bullinq davranışlarına "layiq" olduğunu düşünən uşaqlar da mövcuddur. Uşaqların 11.4%-i bəzi uşaqların öz davranışlarına görə bullinqə layiq olduğunu qeyd edib. 13% uşaq bildirib ki, elələrini "ağıllandırmaq" üçün bullinq göstərmək lazımdır. Uşaqlar arasında dominant olmaq niyyəti ilə bir-birinə iş gördürmək, buyurmaq, zəkası ilə hegemonluq etmək yayğın davranışlardandır. Bu hərəkətlərini "əks halda hörmət etməzlər" düşüncəsi ilə əsaslandıran uşaqlar 27.9%-dir. Tədqiqatda iştirak edən uşaqların kiçik bir faizi tez-tez müxtəlif bullinq növlərinə məruz qaldıqlarını qeyd edib. Ancaq bullinqə məruz qalmaqla əlaqədar suallara qərarsız olduqlarını bildirən uşaqların nisbəti 20% ətrafındadır. Onların bir qismi təhqir olunduqlarını, bir qismi sosial mediada sıxışdırıldıqlarını, böyük bir qismi (27%) isə özlərini məyus, müdafiəsiz və gücsüz hiss etdiklərini qeyd edib.

Sorğuda əsas məqsədlərdən biri də bullinqin uşaqlara necə təsir etdiyini, onlarda hansı təəssürat yaratdığını öyrənməkdir. Bu məsələ ilə əlaqədar uşaqların cavabları aşağıdakı cədvəldə öz əksini tapıb:

Cədvəl 9

Bullinqin uşaqlara təsiri	Nisbət (%)	N
Dərslərimin geriləməsinə səbəb olur.	19	446
Məktəbə getmək istəmirəm.	17	399
Məktəbdə adım pis çıxır, sosiallaşa bilmirəm.	12	282
Dostlarımı itirirəm, yeni dostlar qazana bilmirəm.	24.2	568
Psixologiyam pozulur.	26.2	615
Özümü çarəsiz hiss edirəm.	11.1	260
Duyğularım qarışır.	10.9	256
Depressiyaya düşürəm.	11	258
Özümə zərər vermək istəyirəm.	5	117

2351 uşaqdan 40 nəfər (1.7%) cinsi bullinqə məruz qaldığını və buna görə özünə zərər vermək istədiyini qeyd edib. 51 nəfər – 2.2% isə bu məsələdə qərarsız qalıb.

Bundan əlavə, tədqiqatda uşaqların ailə vəziyyətləri, davamiyyətləri, akademik nəticələri, idman-incəsənət fəaliyyətlərinə qoşulmaları ilə bullinqə məruz qalmaq və bullinq törətmək arasında əlaqəyə nəzər yetirilib. Bu dəyişənlər arasındakı korrelyasiyalar aşağıdakı kimidir:

Cədvəl 10	
Bullinqlə müxtəlif dəyişənlər arasındakı korrelyasiya (əlaqə-mütənasiblik)	
Bullinqə təsir edə biləcək amillər	**Korrelyasiya əmsalı (r)**
Valideynlərin ayrı olması	0.30
Akademik göstəricilərin zəif olması	0.10
Davamiyyətin tez-tez pozulması	0.40
İdmanla məşğul olmaq	-0.20
Daha əvvəl bullinqə məruz qalmaq	0.30
İncəsənətlə məşğul olmaq	0.06

Cədvəldən göründüyü kimi valideynlərin ayrı olması bullinqə məruz qalmağı və bullinq törtəməyi 30% artıra bilər. Akademik göstəricilərdə isə bunu demək çətindir. Çünki bəzən akademik göstəricilərin zəif olması, bəzən isə əksinə, yüksək olması bullinqi artırır. Bu cədvəldə 0.10 minimal səviyyədə müsbət korrelyasiyadan xəbər verir. Tez-tez davamiyyəti pozan, məktəbə müntəzəm gəlməyən uşaqların isə adları daha çox bullinqlə hallanır, adətən bullinq törətdikləri ortaya çıxır. İdmanla məşğul olmaq isə bullinqi adətən azaldır. Kiçik də olsa bu korrelyasiya idmanla məşğul olan uşaqların daha az bullinq törətdiklərini ortaya qoyur. Daha əvvəl evdə və ya məktəbdə bullinqə məruz qalan uşaqların bullinq törətmə ehtimalları artır. Belə uşaqlar bullinq qurbanı olduqlarını əsas gətirib öz aqressiv davranışlarına bəraət qazandırırlar. İncəsənətlə məşğul olmaq isə bullinqlə çox zəif korrelyasiya təşkil edir. Bəzi situasiyalarda uşaqların incəsənətlə məşğul olmağı onların bullinqə məruz qalmasına səbəb olduğu halda, müəyyən situasiyalarda tam əksi baş verir.

Keyfiyyət metodu ilə əldə edilən məlumatlar və məzmun təhlili

Bu mərhələdə 30 nəfərin fikirləri yarıstrukturlaşdırılmış müsahibə üsulu ilə soruşulub. Bu müsahibə formasında qeyd olunan suallardan əlavə vəziyyətə uyğun suallar da verilib və uşaqlar arasında bullinq halları dərindən araşdırılıb. Müsahibələr diktafon vasitəsilə qeydə alınıb və səslər mətnə çevrildikdən sonra məzmun təhlili aparılıb. Tədqiqatın aparılmasında iştirak edən 30 mütəxəssisdən 24-ü qadın, 6-sı kişidir.

Tədqiqatda qadın mütəxəssis QM1-23, kişi mütəxəssis KM1-6 şəklində kodlaşdırılıb. Onların 10-u özəl psixologiya mərkəzlərində psixoloq kimi fəaliyyət göstərir və universitetlərdə tədrislə məşğuldur, 19-u ümumtəhsil müəssisəsində psixoloqdur, 1-i isə psixiatr həkimdir. Mütəxəssislərin hamısı ali təhsillidir və iş prosesində müntəzəm olaraq 13-17 yaşlı uşaqlarla işləyir, onların müxtəlif psixoloji problemləri ilə məşğul olurlar. Əldə olunan məlumatlar 3 mövzu altında toplanıb. Bunlar cari vəziyyətdə bullinqin səbəbləri, nəticələri və həll yollarıdır. Hər bir mövzu 3 əsas başlığa ayrılıb: ailə ilə, uşağın özü və məktəblə (cəmiyyət və dövlətlə) əlaqədar cəhət.

Şəkil 1



Şəkil 2

Əvvəlcə ortaq anlayışların vacibliyi üzərində dayanılıb və mütəxəssislərdən bullinqin tərifi soruşulub. Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın hamı tərəfindən eyni cür anlaşıldığını yoxlamaq üçün "**Bullinq sizə görə nədir?**" sualı verilib və bullinq bütün mütəxəssislər tərəfindən bənzər formalarda izah olunub. Burada bullinqin tərifi haqqında aşağıdakı kodlar ortaya çıxıb.

Cədvəl 11

Bullinqin tərifində qeyd olunan kodlar

Kodlar	30 mütəxəssis arasında qeyd olunma tezliyi
Zərər vermək	28
Məqsədli	25
Təkrar	25
Güc fərqi	17

Etinasızlıq	12
Təhqir	24
Təhdid	23
Fiziki	29
Sosial	20
Psixoloji	20
Verbal	27
Qeyri-verbal	25
Emosional	20
İxtiyari	3
Qruplaşma	10
Hörmətsizlik	1
İstismar	3
Sui-istifadə	5
Despotluq	1

Bu kodlar əsasında formalaşan tərifi bu şəkildə xülasə etmək olar: Bullinq hər hansı fərqə görə bir insanın (qrupun) digərinə (insana, qrupa) məqsədli formada təkrarən zərər verməsi, onu incitməsi, təhqir etməsi, qorxutması, vurması və ya itələməsi, qrupdan təcrid etməsi, verbal və ya qeyri-verbal üsulla ona psixoloji, sosial, emosional xəsarət yetirməsi, onu görməzlikdən gəlməsi, ona etinasızlıq və laqeydlik göstərməsidir.

Müxtəlif tərifiər olmaqla yanaşı, ortaq anlayışların varlığı aşkar görünür. Yerli mütəxəssislər bullinqin elmi tərifini bilir və oxşar formada izah edirlər. Onlardan QM6 kodlu mütəxəssis belə deyir:

QM6: Burada ixtiyarilik anlayışı vacibdir. Uşaqlar arasında qeyri-ixtiyari baş verən hadisələr bullinq çərçivəsində götürülməməli, uşağa münasibət də sərt olmamalıdır. Ancaq ixtiyari formada təkrarlanan zərər yetirmə davranışları varsa, artıq bu, bullinq sayılır.

Kişi mütəxəssislərdən mütəxəssis KM1 isə adətən bullerlərin uşaqları öz ətrafına toplamasına diqqət çəkir:

Çox vaxt bullinq bir qrupun bir fərdə zərər verməsi şəklində cərəyan edir.

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞIN SƏBƏBLƏRİ

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbləri mövzusu üç kateqoriyada nəzərdən keçirilib. Bunlardan birincisi ailə, ikincisi məktəb və cəmiyyət, üçüncüsü isə şəxsin özüdür. Cədvəl 12-də bullinqin ailədən qaynaqlanan səbəblərini izah edən kodlar verilib.

Ailə

İnsanın dünyaya göz açdığı ilk mühit ailədir. Bir qisim alimlərə görə, insan doğulduqda ağ kağız, bir qisminə görə yaxşıya meyilli, digər bir qisminə görə isə pisə meyillidir. Hər bir halda ailənin insanın tərbiyəsindəki rolu danılmazdır və bu hissədə ailənin yetkinlik yaşına çatmayan uşaqlarda bullinqə necə səbəb olduğu izah edilir. Cədvəl 12-də mütəxəssislərin ailədən qaynaqlanan səbəbləri izah edərkən qeyd etdikləri kodlar yer alıb:

Cədvəl 12	
Kateqoriya: Ailə	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Valideynlərin ayrı olması	25
Valideynlərin peşələri	19
Fiziologiyaları	15
Maddi vəziyyətləri	10
Sosial vəziyyətləri	5
Davranışlar	29
Qayğı	10
Ailədaxili konflikt	30
Tək ana	4
Ailədə bullinq	28
Miqrasiya	1
İfrat nəzarət	3
Sevgi çatışmazlığı	13
Valideyn-uşaq münasibətləri, ünsiyyət	30
Valideynlərin ekran saatının çoxluğu	7
Narsist valideynlər	10
Sosial media fenomenləri	12

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın ailədən qaynaqlanan səbəbləri ilə bağlı tədqiqat mütəxəssislərinin ifadələri aşağıdakı formadadır. Onlardan biri – mütəxəssis QM3 yetkinlik yaşına çatmayanlarda bullinq davranışının öyrənilən bir davranış olduğunu vurğulayır:

Kimin atası və anası bullinqə məruz qalırsa, onun özü də bullinqə məruz qalır. Kim övladını narsistcə yetişdirir, həmin uşaq bullinq törədir.

QM5 isə uşaqlara yanlış tərbiyə verildiyini qeyd edir:

Ailə övladını çox zaman eqosentrik böyüdür və uşaq düşünür ki, o hər şey edə bilər. Hamı ona borcludur. Uşağın hər dediyini edən, sərhədlər qoymayan valideynlər özləri də bilmədən övladlarına zərər verirlər.

QM6 isə uşaqların məhz nəzarətsizlikdən buller olduğunu düşünür:

Uşaqlar ailə nəzarətindən kənarda çox sayda müxtəlif məzmunlu filmlərə, seriallara, animasiyalara baxır və bəzi obrazları özlərinə rol model seçirlər. Həmin rol modelin davranışlarını yamsılayan uşaqlar beləcə bullinq törətməyə başlayırlar.

QM6 isə dağılmış ailələrin buller və ya qurban yetişdirdiyini söyləyir:

Dağılmış ailələrdən gələn uşaqların əksəriyyətində bullinq halları müşahidə edilir. Onlar sanki cəmiyyətdən qisas alır. Ailədə yaşanan hansısa travmatik hadisə uşağı yaşıdlarına qarşı intiqam hissi ilə aqressiya göstərməyə sövq edir. Travma həm bullinq etmək, həm də bullinqə məruz qalmaq şəklində özünü göstərə bilir.

Ümumi olaraq, valideynlərin sosial-iqtisadi vəziyyətinin uşaqların bullinqə məruz qalmasına səbəb olduğunu ifadə edən mütəxəssislərdən QM7 valideynin peşəsinə diqqət çəkir:

Ailə üzvlərinin çalışdıqları peşələri övladlarının bullinqə məruz qalmasının səbəbi ola bilir. Müşahidələrimdən görürəm ki, müəllim övladları daha çox bullinqə məruz qalır. Atası və ya anası aşağı sosial statuslu peşələrdə çalışan uşaqlar da daha çox bullinqə məruz qalır. Müəllim uşaqlarının bullinqə məruz qalmasının səbəbi isə uşaqların həmin müəllim-valideyni tanımalarıdır.

KM1 boşanmış ailənin övladının bullinqə mütləq surətdə məruz qalacağını düşünmür. Burada əsas məsələ evdə bullinqin olub-olmamasıdır:

Sağlam formada və ya erkən yaş dövründə boşanmış ailələrin uşaqlarında bullinq boşanmamış cütlüklərin uşaqlarından çox deyil. Ancaq kimin evində bullinq varsa, həmin uşaqlarda bullinq müşahidə olunur.

Mütəxəssislərin əksəriyyəti bullinqin kök səbəbinin məktəb olduğunu düşünmür. Onlar qeyd edirlər ki, məktəb sadəcə mövcud stiuasiyada bullinqin qarşısını ala bilər, ya da məktəb bullinq "potensialı"nın üzə çıxmasına şərait yarada bilər.

KM2 belə deyir:

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbini mən qətiyyən məktəbdə görmürəm və bu uşaq məsələsi də deyil. Bu, birbaşa valideynlə əlaqədar məsələdir. Sadəcə məsuliyyətin hamısını valideynə yükləməmək üçün onlara bunu demək olmur. Məktəb sadəcə valideynə durumu izah edə, məsuliyyətlərini xatırlada və onu uşaq tərbiyəsi mövzusunda maarifləndirə bilər. Bundan əlavə, məktəbin idarəçiləri məktəbi və prosesləri elə təşkil edə bilər ki, bullinq etmək istəyən heç olmasa məktəbdə bunu edə bilməsin.

Mütəxəssis KM3 ailədə qarşılıqlı hörmət məsələsinə toxunaraq uşaqların da hörmətə layiq olduğunu qeyd edir:

Valideynin hörmət etmədiyi uşaq bullinqə məruz qalacaq və ya bullinq edəcək. Hörmət edilən uşaq özünə hörmət edəcək, özünə hörmət edən uşaq isə kiminsə ona qarşı bullinq etməsinə imkan verməyəcək və başqalarına da hörmət edəcək. Valideynlər çox zaman övladına bullinq edə-edə onu bullerə çevirir. Ailəsindən bullinq görən uşaqlar da digər uşaqları şəxsiyyət kimi görməməyə, onlara hörmət etməməyə yönəlirlər.

Eyni fikri mütəxəssis KM4 bu şəkildə əsaslandırır:

Uşaqlar bizim nəzərimizdə heç nə bilməyən, bizə möhtac, öyrənməyə marağı olmayan, özünü idarə edə bilməyən, pozulmağa hər zaman hazır bir varlıqdır. Bu cür yanaşma uşağı buller, ya da bullinq qurbanına çevirir. Uşağın özü haqqında fikirləri bizim ona yanaşmamızdan asılıdır.

Məktəb və cəmiyyət

Bu mövzuda isə bullinqin cəmiyyətdən, xüsusilə məktəbdən qaynaqlanan səbəbləri haqqında əldə edilmiş məlumatlara yer verilib. Cədvəl 13 bullinqin səbəbləri ilə bağlı mütəxəssislərin məktəb və cəmiyyət kateqoriyasındakı kodlarını ehtiva edir.

Cədvəl 13	
Kateqoriya: Məktəb / cəmiyyət	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Müəllimlərin məlumatlılığı	28
Müəllimlərin laqeydliyi	28
Cəza-mükafat	7
Müəllim-valideyn münasibətləri	15
Məlumat mübadiləsi	4
Qaydalar	23
Psixoloji iş	26
Konfliktlər	17
Sistem-struktur	12
Subordinasiya	5
Resurs	6
Psixoloqların sayı	25
Psixoloqların keyfiyyəti	25
Məktəb direktorlarının ifrat məşğulluğu	3
Məktəblərdə bürokratik işlərin çoxluğu	13
Direktorun səriştələri	14
Psixoloqların motivasiyası	19
Media ilə əməkdaşlıq	1
İndividuallaşma	1

Mütəxəssislər bullinqin məktəb və cəmiyyətdən qaynaqlanan səbəblərini belə izah edirlər:

QM1: *Mediaya ya düzgün məlumat çatdırılmır, ya da media məlumatı düzgün çatdırmır.*

QM2: *Bir qisim müəllimlər uşağın mənfi bir cəhətini bilmədən, qeyri-ixtiyari olaraq digər uşaqların yanında açıq şəkildə dilə gətirirlər.*

QM2 əlavə olaraq qeyd edir ki, risk qrupunda olan uşaqların müəyyən edilməməsi və onlarla effektiv işin aparılmaması da bullinqin vacib səbəbləri arasındadır:

Valideynlərindən birini və ya hər ikisini itirən, valideynləri məhkumluq həyatı yaşayan uşaqlar bullinqlə daha tez-tez üzləşirlər. Bunlar risk qrupu sayılır və bullinq edən də, bullinqə məruz qalan da onların içərisindən çıxır. Cəmiyyət və dövlət bu tip uşaqlarla sosial işçilər vasitəsilə xüsusi iş aparmalıdır. Məktəb psixoloqları da bu işə cəlb edilməlidir. Belə bir kompleks işin aparılmaması bullinqlə nəticələnir.

QM3 isə bullinqin səbəbini əsasən ailədə yox, cəmiyyətdə görür. O, cəmiyyətin müxtəlif sferalarında bullinqin olduğunu aşağıdakı arqumentlərlə əsaslandırır:

Cəmiyyətin bütün təbəqələrində uşaqlar bullinq halları ilə rastlaşır. O halda uşaq niyə bullinq etməsin ki?! Bunun səbəbi şahid olduğu nümunələrdir. Bir çox insana görə, bu, bir normadır, anormal davranış kimi görünmür. Nə əkərsən, onu da biçərsən! Böyüklərin kiçiklərə müxtəlif formalarda bullinq davranışlarını görən uşaqların bullinq törətmələri təəccüblü deyil. Burada böyük dedikdə fiziki və ya yaş mənasında böyüklükdən söhbət getmir. Vəzifə, güc, maaş və ağıl üstünlüyü insanların düşüncələrində, təəssüf ki, bullinqə əsas verir.

Mütəxəssis QM19 eyni fikri bu cür izahla müdafiə edir:

Müəllimlərin psixoloji şiddətinə tez-tez rast gəlinir və məsələnin qəribə tərəfi odur ki, müəllimə bunun yanlış olduğunu inandırmaq və izah etmək mümkün deyil. Müəllimlər bu cür davranışı öz tərz və üslubları hesab edirlər. Əgər məcbur qalsam, bir valideyn kimi övladıma psixoloji bullinqdənsə, fiziki bullinq olmasını seçərdim. Müəllimlər isə adətən uşaqlara psixoloji və sosial bullinq göstərirlər. Müəllimlər uşaqları əvvəlcə öz gözündən, sonra sinfin gözündən salır.

QM20 isə bullinqin məktəb idarəetməsində də müşahidə edildiyini qeyd edir:

Məktəblərdə bütün idarəetmə bullinq üzərində qurulub. Direktorun katibəyə, müavinin müəllimə, müavinin və direktorun məktəb psixoloquna bullinqi tez-tez müşahidə edilir. Bunu kiçik bir araşdırma ilə də isbat etmək mümkündür. Kim daha çox bullinq görürsə, o daha çox bullinq göstərir. Tərbiyə vəzifəsi məktəbə aiddir və hər bir fərd fərqli tərbiyə verirsə, onların övladlarının bir-biri ilə anlaşmağını, yola getməyini necə gözləyə bilərik?!

QM4 isə məktəblərdə psixoloqların kəmiyyət və keyfiyyət tələblərinə cavab vermədiyini qeyd edir:

Məktəblərdə psixoloqların böyük əksəriyyəti qeyri-ixtisaslardan gəlmişdir. Qısamüddətli təlimlərlə psixoloq olublar. Bu tip önəmli bir ixtisas isə məlumdur ki, bakalavr təhsili ilə əldə edilməlidir. Ona görə də məktəb psixoloqlarının çoxu öz işlərini bilmirlər, çünki psixoloq deyillər. Bir məktəb psixoloqu demişdi ki, uşaqlardan biri məni çox sevirdi və mən onun mənfi davranışlarını düzəltmək niyyəti ilə ona salam verməyi kəsdim. Halbuki bu davranış özlüyündə bullinqdir. Küsmək psixoloq yanaşması ola bilməz.

QM17: *Məktəblərdə psixoloqların şagird sayına nisbəti kifayət etmir. 1000 uşağa 1 psixoloq düşən məktəbdə profilaktik işlər, terapiya və s. prosedurların keyfiyyətli icrası mümkün deyildir. Digər tərəfdən psixoloqların bir qismi özlərini direktorun köməkçisi kimi hiss edir və məktəbdə direktor üçün müəyyən işlər görürlər.*

QM23 isə məktəblərdə müəllimlərin psixologiya biliyinin zəifliyinə, bu çatışmazlığa görə də təlim-tədris prosesində səhvlərə yol verdiyinə diqqət çəkib:

Müəllimlər müqayisə edir, mühakimə edir, ədalətli yanaşma göstərmir və nəticədə sinifdə bullinq mühitinə şərait yaradır. Müəllimlərin bir qisminin natamamlıq kompleksi var və onlar uşaqların mənfi davranışını özlərinə qarşı təhqir kimi qəbul edirlər. Məsələn, bir müəllim vardı, hər dərsin başında nə qədər çətin qiymət yazan müəllim olduğunu, bu vaxta qədər nə qədər uşağa 2 yazdığını şagirdlərin diqqətinə çatdırırdı.

QM5 isə uşaqların kiçik yaşlardan etibarən valideyn və müəllimləri tərəfindən müxtəlif formalarda bullinqə məruz qaldığını qeyd edib:

Bir ibtidai sinif müəllimi uşağa "Sən bu mövzuda zəifsən, filankəs səndən güclüdür. Sən çox sual verirsən, məni yorursan, artıq sənin suallarından bezmişəm, sənə cavab verməyəcəyəm" kimi ifadələr işlədirsə, bu artıq bullinqdir. İbtidai təhsil dövründə bu tip bullinqə məruz qalan uşaqlar yuxarı siniflərdə ya bullinq hərəkətləri edir, ya da bullinq qurbanı olur. Erkən inkişaf dövründəki səhlənkar və yanlış yanaşmalar bullinqin ən başlıca səbəblərindəndir.

Mütəxəssis KM1 "9-11-ci siniflərdə uşaqların artıq müəyyən davranış formaları, xarakterləri oturuşmuş olur" deyir. O, yuxarı siniflərin tərbiyəsində müəllimin rolunun müəyyən qədər azaldığını, bu mərhələdə müəllimin məsuliyyətinin olmadığını düşünür.

Müəllim həddi-büluğ yaşlı uşaqların bu vaxta qədərki tərbiyəsindən məsul şəxs deyil. Ona görə də onun işi nəzarətdir, müdaxilədir. O, erkən uşaqlıq dövründən, ibtidai təhsildən keçib gəlmiş bir uşağın davranışlarına görə məsuliyyət daşımır. Əlbəttə, burada müəllim mentorluq, kouçluq, tərbiyəçilik edə bilər və etməlidir. Ancaq problemli davranışlara görə müəllimi qınaya bilmərik. Müəllim həmin uşaqlarla hələ bu il tanış olub. Həmin müəllimi nə haqla uşaqların mənfi davranışlarına görə qınamaq olar. Bu məqamda müəllim sadəcə olaraq mənfi gedişata mane olmalı, nizam-intizam pozuntusuna icazə verməməli, bullinqin qarşısını ala bilmədikdə isə məsələni prosedural olaraq yuxarı instansiyalara bildirməli və müəyyən addımlar atmalıdır: valideynlə danışma, direktor müavininə, məktəb psixoloquna bildirmə, daha ciddi hadisələrdə polisi məlumatlandırma və s.

Ancaq bəzən müəllim və valideynlər həddi-büluğ yaşındakı normal uşaqları bullerə çevirir. Uşaqların həddi-büluğ dövründəki xarakterik inkişafı, emosional, fizioloji, psixoloji dəyişiklikləri onların ətrafı tərəfindən bəzən normal qarşılanmır və bu prosesdə uşaqlara münasibət düzgün olmur. Beləcə, mütəxəssis KM2-nin dediyi kimi:

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəblərindən biri də çox zaman münasibətlər olur. Uşaqlar sevdikləri insanın xüsusiyyətlərini götürür, artıq baxmır bu xüsusiyyətlər yaxşıdır, yoxsa pis. Çox zaman isə tərbiyəçi mövqeyində olanlar (böyük uşaq, valideyn və b.) münasibəti düzgün qurmadığından uşaqlar deyilənin əksini edir. Çünki uşaq ona məsləhət verən insanı sevmir. Ona görə də tərbiyə prosesində münasibətlər ən vacib məsələdir.

Mütəxəssislər məktəb mühitinin sağlam və təhlükəsiz olmamasını, məktəbdə stressin çoxluğunu da bullinqin səbəbləri arasında qeyd edirlər: KM6:

Məktəb baxmalıdır ki, orada ab-hava necədir? Qapıda dayanan mühafizəçidən xadiməyə qədər hamı bu ab-havaya təsir edir. Məktəb yaşamaq üçün xoş bir yer deyilsə, orada narahat davranışlar qaçılmazdır. Rahat məktəblərdə narahat davranışlar olmaz. Məktəblər təhlükəsizliyi təmin etmək üçün narahat mühit yaradırlar. Ancaq təhlükəsizlik məktəbin öhdəliklərindən biridir, nə birincisidir, nə də yeganəsidir. Niyə təhlükəsizlik dedikdə ancaq məhdudlaşdırma nəzərdə tutulur. Halbuki məhdudiyyətlər aqressiya yaradır.

Mütəxəssis QM11:

Süni və ifrat çətinliklər də sress yaradır və stress aqressiyanın, aqressiya isə bullinqin səbəbi olur. Buraxılış və universitet imtahanlarının çətin keçirilməsi, sualların həddən artıq mürəkkəb olması və bəzən məktəbdə keçilənlərin imtahanlar üçün kifayət etməməsi uşaqlar arasında dolaylı bullinqə səbəb olur. 9 və 11-ci sinif uşaqlarının çiyinlərində ağır imtahan yükü var. Valideynlər övladlarından yüksək nəticə gözləyir və əksəriyyəti uşaqları hazırlıqlara göndərir. Məktəb isə uşağın davamiyyətini və dərslərə hazırlıqlı olmasını tələb edir. Uşaq bilmir, hansı

tələbi prioritet qəbul etsin. Bir tərəfdən məktəbin tələbini yerinə yetirmək, digər tərəfdən hazırlıqda verilən tapşırıqları öyrənmək uşağı hədsiz sıxır. Belə olan halda da uşağın emosional disbalans yaşaması normaldır.

KM3 və digər iki mütəxəssis məktəblərdə uşaq sıxlığını bullinqin səbəbləri hesab edir:

Məktəb və siniflərdə uşaq sıxlığının yüksək olması da bullinqin səbəblərindəndir. Uşaqların sıx olduğu məktəblərdə, siniflərdə onlara nəzarət və individual iş çətinləşir. Uşaq sayı çox olan siniflərdə müəllim bullinq davranışlarını görə bilmir. Bullinq qurbanının özünə qapanması, özünü ətrafından təcrid etməsi müəllim və məktəb rəhbərliyinin gözündən qaçır. Bu cür məktəblərdə psixoloqların işi daha çətin olur. Çünki onlar fiziki olaraq çatdıra bilmir. Psixoloji işin yetərsiz olmasının bir səbəbi də bu ola bilər.

Mütəxəssis KM4 isə sinif rəhbərlərinin işinin əhəmiyyətini vurğulayır:

Sinif rəhbərləri məktəblərdə öz işlərini səmərəli təşkil etmir. Uşaqların nəzarətsiz qaldığı saatlar çox olur. Sinif rəhbərləri uşaqları az görür, çox zaman buna vaxtları da olmur. Sinif rəhbərinin siniflə tərbiyəvi söhbət saatının olmaması, uşaqların davranışlarını izləyə bilməmələri bullinqin daha da vüsət almasına gətirib çıxarır.

Bütün bu qeyd olunanlar bullinqin məktəb və cəmiyyətdən qaynaqlanan səbəbləridir.

Şəxsin özü

Bu hissədə bullinqin səbəblərinin şəxsin özünə aid tərəfləri işıqlandırılıb. Burada şəxsin xüsusiyyətləri sadalanıb. Həmin xüsusiyyətlər müxtəlif formalarda insanın bullinq qurbanı və ya buller olmasına gətirib çıxarır.

Cədvəl 14	
Kateqoriya: Şəxsin özü	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
İradə zəifliyi	10
Özünü ifadə edə bilməmək	21
Fiziki zəiflik	20
Maddi vəziyyət	6
Sosial vəziyyət	7
Davranışlar	29
Qayğı	10
Nizam-intizam	11
Aqressiya	18
İmpulsivlik	5
Yeniyetməlik eqosentrizmi	5
Empatiyanın zəifliyi	8

Bu bölmədə mütəxəssislər bullinqin şəxsin özü ilə əlaqədar səbəblərini aşağıdakı formada izah ediblər. Bu səbəblərin arasında ən çox rast gəlinən kodlar buller və qurbanların davranışları, özlərini ifadə edə bilməmələri, fiziki cəhətdən zəif və ya güclü olmaları, ümumiyyətlə fərqli olmaları, aqressiv olmalarıdır. Bu kodlarda qeyd edilən səbəblər çox vaxt hansısa davranışların nəticəsi olsa belə, bu hissədə müstəqil şəkildə nəzərdən keçirilib.

Əksər mütəxəssislər ekranların, yəni vizual informasiya mənbələrinin (telefon, kompüter, televizor) uşaqlara mənfi təsirlərini vurğulasa da, iki mütəxəssis burada daha çox böyüklərin qəbahət daşıdığını qeyd edib.

Mütəxəssis QM3 deyir:

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəbini mən ekranlarda görmürəm. Ekranların bu problemdə payı digərlərinə nisbətən azdır. Əgər uşaq ekranda gördüklərini tətbiq üçün imkan və fürsət tapmasa, buna şərait görməsə, etməz. Uşaqda potensial olaraq aqressiya, bullinq davranışı formalaşırsa, bunu istifadə etməyə fürsət tapa bilməməlidir. Ancaq, təəssüf ki, uşaqda yığılan bu aqressiya hansısa məkanda və formada özünü göstərir.

Mütəxəssis QM4 uşağın ruhi-psixoloji halına diqqət çəkir:

Özünü pis hiss edən özünü pis aparır. Özünü pis hiss etməyən niyə özünü pis aparsın ki? Özünü pis hiss etməyin isə bir çox səbəbi ola bilər. Aqressivlik, impulsivlik – kontrolsuz hisslər bullinqin səbəbləri ola bilər. Ancaq bu da məlumdur ki, aqressivlik ikinci dərəcəli hissdir. Uşaq nəyəsə görə aqressiv olur. Məsələn, haqsızlığa uğradığı və ya müqayisə olunduğu üçün, başa düşülmədiyi üçün özünü aqressiv hiss edir. Bir səbəb də yeniyetməlik eqosentrizmi ola bilər. Yeniyetmə onun yaşadığı hissləri heç kimin yaşamadığını və heç kimin onu başa düşmədiyini fikirləşir.

QM21 və digər əksər mütəxəssislər uşaqlar arasındakı bullinqin əsas səbəbinin fərqli xüsusiyyətlər olduğuna diqqət çəkiblər. Bu fərqlər müxtəlif aspektlərdə ola bilər. Hər hansı bir fərq bullinqin səbəbi ola bilir və adətən bu fərqliliklər daşıyıcını buller deyil, bullinq qurbanı edir:

Burada əsas səbəb fərqli olmaqdır. Ortalamadan, öyrəşiləndən fərqli olmaq bullinq riskini artırır. Bu, bəzən zəif oxumaq, bəzən də əla oxumaqdır. Fiziki quruluşca fərqli olmaq da bullinqə gətirib çıxarır. Bu hal bəzən bullinq etmək, bəzən də bullinqə məruz qalmaq şəklində cərəyan edir.

QM7: *İnklüziv mühit yaratmaq məqsədilə tədris müəssisələrinə cəlb edilən müəyyən (fiziki və əqli) məhdudiyyətləri olan uşaqlar da bullinqə məruz qalır.*

KM3: *Bullinqə məruz qalmaq üçün fərqli olmaq, fərqli düşünmək kifayətdir. Bullerlər isə daha çox cavab vermə ehtimalı olmayanlara yönəlir, səssiz, zəif görünən uşaqları qurban seçirlər.*

KM3 uşaqların tərbiyələri arasındakı fərqin də bullinq səbəbi olduğunu qeyd edir:

Bir də uşaqları formalaşdıran ailə mühiti onlara müəyyən dünyagörüşü, xarakter və mədəniyyət ötürür. Bullerlər üçün, bəlkə də, bullinq davranışı adi bir davranışdır, onların, bəlkə də, normalı budur. Empatiyanın azlığı da bullinqin ən önəmli səbəblərindəndir. Empatiya mücərrəd anlayış olub görərək, yaşayaraq öyrənilən bir davranışdır. Bunu isə uşaq adətən ailədə görüb-götürür.

KM1 digər həmkarlarından fərqli olaraq, bullinqin normal bir proses olduğunu vurğulayır və yetkin insanların bu məqamda sadəcə nəzarət, tənzimləmə mövqeyində dayanmalı olduğunu qeyd edir:

Bullinq, əslində, həddi-büluğ yaşında normal fizioloji haldır. Burada əsas məsələ dozasının tənzimlənməsidir və bunu tənzimləmək vəzifəsi valideynin, müəllimin üzərinə düşür. Uşaq normal

idraki inkişaf prosesində müəyyən yaşa gəldikdə özünü daha yaxından tanıyır, sevgi, qarşı cins kimi məsələlərdən agah olur və qəhrəmanlıq axtarmağa başlayır. Bu məqamda onunla ortaq xüsusiyyəti olanlarla birləşib qrup əmələ gətirir. Ya da ətrafındakı qruplardan birinə qoşularaq var olmağa, varlığını ortaya qoymağa çalışır. Bu məqamda onun bullinq etməsi, yaxud başqa qruplar tərəfindən bullinqə məruz qalması təbii prosesdir. Hətta bullinqin olmaması anormal sayıla bilər. Qruplaşmanın məqsədi bütün hallarda sıxışdırmaqdır.

KM4: *Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın səbəblərində cinsə görə fərqlilik müşahidə olunur. Qızlarda bullinqin səbəbləri də, nəticələri də daha dərin olur. Oğlanlarda isə adətən situativ xarakter daşıyır. Uşaq düşünür ki, mən başqalarından güclüyəm və zərər verə bilirəm. Çünki bu mənə güclü olduğumu hiss etdirir. Bullinqə məruz qalan isə düşünür ki, o mənə bunu edirsə, mən ondan zəif olduğum üçün edir, deməli, mən də özümdən zəifə bunu edə bilərəm.*

YETKİNLİK YAŞINA ÇATMAYANLAR ARASINDA AQRESSİV DAVRANIŞIN NƏTİCƏLƏRİ

Bu hissəyə bullinqin fəsadları da demək olar. Bu mövzuda bullinqin qarşısı alınmadığı təqdirdə ortaya çıxması ehtimal olunan fəsadlar izah edilir. Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın nəticələri də yenə 3 kateqoriyada izah olunub. Bunlardan birincisi, bullinqin ailəyə, ikincisi, məktəb mühitinə və cəmiyyətə, üçüncüsü isə insanın özünə verdiyi zərərlərdir.

Ailə

Əvvəlcə ailə kateqoriyasında bullinqin fəsadlarına yer verilib. Mütəxəssislərin bu kateqoriyaya aid cavablarında ailədaxili konfliktlər, ünsiyyətin zəif olması, boşanma və şiddət kimi kodlar müəyyən edilib.

Cədvəl 15	
Kateqoriya: Ailə	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Ailədaxili konfliktlər	26
Ünsiyyətin zəif olması	12
Ailədə bullinq	30
Ailə bağları	21
Boşanma	1
Fiziki şiddət	7
Tənhalıq	10
Oğurluq	1
Zərər yetirmə	3

Mütəxəssislərin əksəriyyəti bullinqin uşağı tənhalığa sürüklədiyini qeyd ediblər. Buller və ya qurbanlar ailələri ilə münasibəti kəsir və daha çox tək qalmağa can atırlar ki, ikincilərdə bu özünü daha çox göstərir. Bullerlər isə adətən ailələrində konfliktin bir tərəfi olur və tez-tez ev-dəkilərlə verbal mübahisəyə girirlər. Mütəxəssis QM13 belə deyir:

Bullinqə məruz qalan uşaqlar özlərini köməksiz və zəif hiss edir. Bəzən düşünürlər ki, onları bu vəziyyətdən heç kim qurtara bilməz. Həm də onlar məsələni evdə deməyə qorxur, birmənalı qarşılanmayacağından narahatlıq keçirirlər.

QM15 kodlu mütəxəssis isə belə deyir:

Bullerlər adətən aqressiv olurlar və evdəki hər söhbəti mübahisə zəmininə çəkə bilirlər. Onlar ailə üzvlərinə də bullinq edə bilir. Ona görə də valideynlər ayıq-sayıq olub bunu görməlidir. Ancaq elə olur ki, valideynin hər hansı bir məsləhəti onlara ağır gəlir və qətiyyən məsləhət qəbul etməyən bir insana çevrilirlər.

Mütəxəssis QM3 bullinqin nəticələrinin ailədə bir çox problemə yol açdığını qeyd edir. Digər mütəxəssislər də onun fikrini mahiyyət etibarilə dəstəkləyirlər:

Bullinq insanları tənhalığa sürükləyir. Buller və ya qurbanlar evdə özlərinə, ailə üzvlərinə və evin əşyalarına zərər verməyə meyilli ola bilərlər. Bu davranışlar qarşısı alınmadıqda cinayətə qədər gedə bilir. Buna nümunə olan hallar mövcuddur.

Mütəxəssis QM1 isə valideynlərin bullinq nəticəsində ayrıldığını vurğulayır:

Bullinq azyaşlılar arasında olmasa da, yetkinlər arasında və ya yetkinlə uşaq arasında ola bilər. Yəni valideynlər arasında və ya valideynlə uşaq arasında baş verən bullinq ailənin dağılmasına gətirib çıxarır.

Məktəb və cəmiyyət

Bu hissədə bullinqin məktəb və cəmiyyətə verdiyi zərərlər, onun qarşısı alınmadığı təqdirdə mümkün fəsadları izah olunub. Mütəxəssislərdən alınan müsahibələrin sətir aralarında *kin, nifrət, münaqişələr, nizam-intizam pozuntuları* kimi kodlar aşkara çıxıb.

Cədvəl 16	
Kateqoriya: Məktəb və cəmiyyət	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
İctimai kin	10
Konfliktlər	14
Akademik nəticələr	30
Sosial iştirakçılıq və fəallıq	5
Nizam-intizam	28
Nifrət dili və üslubu	20
Cinayət	5
İctimai asayiş	3
Münaqişə	10

Mütəxəssisələr bullinqin qarşısının mütləq alınmalı olduğunu yekdilliklə qeyd ediblər. Onlar bullinqin məktəbin ümumi məqsədlərinə çatmasını çətinləşdirəcəyinə diqqət çəkiblər. Onlardan biri – QM18 belə qeyd edir:

Məktəbdə bullerlər və bullinq qurbanları varsa, deməli, orada sağlam psixoloji mühit yoxdur. Deməli, orada pedaqoji proses axsayacaq. Çünki öyrənmə psixoloji prosesdir. Psixologiya qaydasında deyilsə, öyrənmə gerçəkləşməyəcək və məktəb məqsədlərindən birinə çata bilməyəcək. Digər məqsədlər də məktəbdə sağlam psixoloji mühiti, təhlükəsiz fiziki məkanı labüd edir.

Mütəxəssis QM2 isə fikirlərini belə ifadə edir:

Uşaqlardan birinin anası öldürülmüşdü. Həmin uşaq hamı ilə həmişə dalaşmaq istəyirdi. Sanki hamıdan başına gələn faciənin intiqamını almağa can atırdı.

Göründüyü kimi, bir uşağın qeyri-sağlam psixoloji vəziyyəti onu bullerə çevirə və məktəb mühitini poza bilir.

Şəxsin özü

Bu hissədə isə bullinqin şəxsin özünə verdiyi zərərlər qeyd edilib və müsahibələrdən əldə olunan məlumatlara yer verilib. Cədvəl 17-də qeyd olunduğu kimi bullinq etmək və bullinqə məruz qalmaq uşaqlarda özgüvənin daha da azalmasına, cinayət əməllərinə, akademik nəticələrinin geriləməsinə gətirib çıxarır.

Cədvəl 17	
Kateqoriya: Şəxsin özü	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Özgüvən	25
Həbsxana həyatı	5
Dərslərində geriləmələr	15
Ailələrin dağılması	11
Sağlamlıq problemləri	3
Özünüqiymətləndirmə	4
Özünəqəsd	7

Mütəxəssis QM5 bullinqin uşağa verdiyi zərərləri bu cür izah edib:

Uşaqlar bullinqə məruz qaldıqda depressiyaya düşür, özünə qapanır, özünü sosial cəhətdən təcrid edir və sanki həyatdan qopur. Bullinq edən uşaqlar isə daha aqressiv olur, dərslərinə fikir vermir və məktəbin sağlam mühitinə zərər verdiyi üçün bir çox problemlərlə üzləşirlər. Məsələn, ailə münasibətləri pozulur. Məktəbdən davamlı şikayət alan valideynlər övladlarına qəzəblənir ki, bu durum da vəziyyəti və münasibətləri daha da pisləşdirir.

Mütəxəssis KM3 bullinqin uşaqların nəinki gündəlik həyatını, gələcək həyatını da təhlükəyə atdığını qeyd edir:

Uşaqlıqda yaşanılan travmalar gələcəkdə daha pis şəkildə özünü göstərə bilər. Ruhi-mənəvi xəsarət gizli psixoloji travmalarla, psixi xəstəliklərlə nəticələnə bilər. Belə olan halda həmin insanlar bütün münasibətlərdə özgüvən, özünüifadə, ünsiyyət, özünüqiymətləndirmə problemi ilə üzləşə bilər. Bu insanlar iş və ailə həyatında daha çox uğursuzluğa düçar ola bilərlər.

QM1 bu tip uşaqların cinayətə daha meyilli olduğunu vurğulayır:

Yetkinlik yaşına çatmayanların həmin dövrdə yaşadıqları onları həyata qarşı qəddarlaşdırır. Bu qəddarlıq və intiqam hissi yetkinlik yaşına gəldikdə onları cinayətə meyilli hala gətirir. 14-18 yaşlı uşaqlar arasından islah əmək koloniyalarına düşənlərin və sonralar da həbsxana həyatı yaşayanların əksəriyyətinin bullinq keçmişi vardır.

BULLİNQLƏ MÜBARİZƏ YOLLARI

Bu hissədə bullinqin qarşısını almaq üçün mütəxəssis rəyləri əsasında müxtəlif yollar, üsullar və təkliflər işıqlandırılıb. Mütəxəssislər bullerlərin və qurbanların müəyyən edilməsinin bullinqin qarşısının alınmasında prioritet addım olduğunu qeyd edirlər.

Bu bölmə əvvəlki iki bölmədə olduğu kimi üç kateqoriya üzrə işlənib. Bunlar ailə, məktəb və cəmiyyət, şəxsin özüdür.

Ailə

Bu mövzuda bullinqin qarşısını almaq və onun vurduğu yaraları sağaltmaq məsələsində ailənin üzərinə düşən öhdəliklər öz əksini tapıb. Əvvəlcə bu bölmədə ailənin övladları ilə effektiv kommunikasiyasına, valideynlərin məlumatlı olmasına və övladlarına nümunə olmasına diqqət çəkilib.

Cədvəl 18	
Kateqoriya: Ailə	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Valideynlərin söhbətləri	20
Valideynlərin maarifləndirilməsi	30
Rol model olmaq	20
Peşəkar psixoloji xidmət	10
Dialektik davranış terapiyası	3
Enneaqram, temperament testi	1
İdrak terapiyası	3
Emosional terapiya	3
Qəbul etmə	10

Anlama	11
Şəfqət	5
Mərhəmət	13
Telefona nəzarət	15

Mütəxəssis KM5 valideynin bullinq probleminin həllinə töhfəsini belə xülasə edir:

Bəzi valideynlər övladlarına başqa uşaqların valideynlərini pisləyir. Bu cür hərəkətə əsla yol vermək olmaz. Çünki bu cür gözdən salma axırda bullinqlə nəticələnir. Valideynlər özləri nümunə olmalıdır ki, uşaqlar onlardan öyrənə bilsinlər.

Mütəxəssis QM4 isə peşəkar psixoloji xidmət alınmasının vacibliyini qeyd edir:

Dialektik davranış terapiyası psixoloji terapiyanın bir növüdür və yeniyetmələrdə effektiv nəticələr verir. Məktəb psixoloqları bu xidməti göstərməkdə çətinlik çəkə bilərlər. Ona görə də valideynlər övladlarında bullinqlə bağlı problemlər müşahidə edir və məktəbdən təkrar-təkrar bənzər şikayətlər eşidirsə, dialektik davranış terapiyası üçün peşəkar psixoloqa müraciət edə bilərlər. Bu koqnitiv bir terapiyadır və əksər hallarda müsbət nəticələr verir.

Mütəxəssis QM19 isə valideynlərin övladlarından gözləntilərinə diqqət çəkir. O bu gözləntilərin çox zaman uşaqları bullinq qurbanına çevirdiyini qeyd edir:

Ailə övladından ənənəvi gözləntilərini dəyişməlidir. Ənənəvi gözləntilər uşağı sakit, yolagedən, başıaşağı olmağa vadar edir. Bu tip uşaqlar isə bullinqə daha çox məruz qalır. Yeni tip valideynlər isə başqa bir ekstrimi meydana gətirir və uşaqlarına deyir ki, "sənə nə edirlər, sən də eyni ilə cavab ver".

Mütəxəssis QM20 isə valideynlərin övladlarına qarşı bullinq törətməsi hallarına tez-tez rast gəlindiyini qeyd edir:

Valideynlər övladlarına bullinq etməkdən çəkinməlidir. Çünki uşaqlar bullinqi proyeksiya edir, yəni gücü çatmayandan aldığı bullinqi gücü çatana ötürür. Bullinqə öyrəşən uşaqlar bu hərəkəti normal görür və yoldaşları ilə aqressiv rəftar edirlər.

Mütəxəssis QM 19 münasibətlərin vacibliyinə toxunur və sağlam münasibət olmadan valideynlərin övladlarını hansısa bir mövzuda tərbiyə etməsini qeyri-mümkün hesab edir:

Valideynlər övladları ilə sağlam münasibət qurmalıdır. Ünsiyyət sağlam olmadıqda heç bir tövsiyə təsir etməyəcək. Valideynlər mütləq övladlarının telefonlarını nəzarətdə saxlamalıdır. Ancaq uşaqlar bunu ifrat dərəcədə hiss etməməlidirlər. Ünsiyyət sağlam olduqdan sonra isə valideynlər övladlarına şəxsi sərhədlərin önəmindən, sosial medianın və internetin düzgün istifadə üsullarından danışmalı və ya bu barədə mütəxəssislərin kitablarını oxutmalı, təlimlərini göstərməlidir.

Mütəxəssis QM5 isə qeyd edir ki, bullinq davamlı surətdə baş verirsə, valideynlər bunu tək başına həll etməyə çalışmamalıdır. Onlar övladlarını fərdi və qrup terapiyasına apara bilər.

Mütəxəssis QM6 bir qisim valideynlərin səhlənkarlığına diqqət çəkir və onların övladlarının inkişafı barədə ayıq-sayıq olmalı olduğunu ifadə edir:

Valideynlər burada ayıq-sayıq olmalı, övladının davranışlarını, inkişafını daim müşahidə etməlidir. Onun davranış dəyişikliklərinə laqeyd qalmamalı və hər hansı bir dəyişikliyi nəzərindən

qaçırmamalıdır. Valideyn uşağın bədənində və zehnində olan hər hansı bir dəyişikliyi dərhal diqqət mərkəzinə almalı və səbəblərini araşdırmalıdır.

Məktəblərin nəzarətində yüzlərlə, minlərlə uşaq var. Bəzən onlar uşağa individual diqqət göstərə bilmir. Məhz buna görə də mütəxəssis QM6 valideynin bu mövzuda proaktiv olmağının vacibliyinə diqqət çəkir:

Məktəbin öyrətməyini gözləmədən hər bir valideyn uşağına bullinqin mahiyyətini, özü və ya yoldaşı bullinqlə qarşılaşdığı zaman böyüklərə məlumat verməli olduğunu izah etməlidir. Valideyn övladına qarşı edilən bullinqi vaxtında bilməli və lazımi tədbirlər görməlidir.

Mütəxəssis QM7 valideynlə övlad arasında emosional bağın vacibliyinə diqqət çəkir:

Valideynlər övladları ilə emosional bağı güclü saxlamalı, onlara daha çox vaxt ayırmalıdır. Valideynlər uşaqlarını yaxşı repetitor və yaxşı kurslara göndərməklə vəzifələrinin yekunlaşdığını düşünürlər. Halbuki valideynlik ünsiyyətlə başlayır və sağlam ünsiyyət bir çox problemin qarşısını alır. Belə olduqda uşaqlar çıxış yolunu intiharda yox, valideynləri ilə söhbətdə tapırlar. Uşaqlar valideynlərindən çox gileylənirlər. Onlar deyirlər ki, valideynləri onlardan sadəcə dərs tələb edir. "Neçə almısan?" deyə soruşurlar, amma "Özünü necə hiss edirsən?" deyə sual vermirlər.

Digər mütəxəssislər kimi KM1 də bullinqin bir nəticə olduğunu qeyd edir:

Valideyn həddi-büluğ yaşına qədər nə tərbiyə veribsə, övladında da ona uyğun davranışlar görəcək. Valideynin işi burada bullinqə adekvat reaksiya vermək, uşağı danlamadan məsələnin həlli istiqamətində lazımi addımlar atmaqdır.

Mütəxəssis KM4 bullinqin valideynlərin gözündən qaçmamalı olduğunu xüsusi vurğulayır:

Ailə, valideynlər bullinqi görməli, hiss etməlidir. Bunu gördükdə isə mütləq peşəkar xidmət almalıdır. Hər insanın müayinəyə ehtiyacı olduğu durumlar var. Belə durumlarda psixoloqa da, psixiatra da mütləq görünmək lazımdır.

Mütəxəssis KM6 ailədə güvən məsələsinin əhəmiyyətinə diqqət çəkir və güvən olmadığı zaman kommunikasiyanın pozulacağına, kommunikasiya pozulanda isə bullinqin gizli qalaraq davam edəcəyinə diqqət yetirir:

Valideynlər övladlarına güvənməli və bu güvəni onlara hiss etdirməlidir. Valideynlərin övladlarına hörməti onları dəyərli hiss etdirəcək. Özünü dəyərli hiss etmək isə özünə və başqalarına hörmət etməklə nəticələnəcək. Hörmət və diqqət görən uşaqların özünüqiymətləndirmə səviyyəsi yüksək olur. Güvənə bilməyən uşaqlar isə problemlərini valideynlərinə deyə bilmir, bundan qorxurlar.

Mütəxəssis KM3 bullinqin qarşısının alınmasında empatiyanın vacibliyinə diqqət çəkir:

Valideynlər uşaqlara kiçik yaşlardan etibarən empatiya hissini aşılamalıdır. Bu yöndə müxtəlif fəaliyyətlər həyata keçirməklə yanaşı, həm də onlara nümunə olmalıdırlar. Empatiya bullinqin qarşısını ala bilər. Empatiya hissi mərhəmət doğurar. Valideyn isə bunları öyrədə bilmək üçün uşaqlarla effektiv vaxt keçirməlidir. Valideynlər övladlarının hisslərini yaşamağa imkan verməlidirlər. Valideynlər kədər, üzüntü, paxıllıq, həsəd, qısqanclıq kimi duyğuları qəbul etmirsə, görmək istəmirsə, bu hisslər sonradan aqressiya formasında özünü biruzə verəcək. Uşaq da hirsini aqressiv şəkildə başqalarından çıxacaq.

Mütəxəssis KM3 qeyd edir ki, bir çox uşaq məktəbdə, küçədə yaşadığı problemləri evdə deyə bilmir:

Valideyn elə bir güvən mühiti yaratmalıdır ki, bullinqə məruz qalan və bullinq edən uşaq evdə öz hisslərini gizlətməsin. Hisslərini ifadə edə və yaşaya bilsə, aqressiyadan uzaqlaşar, qəzəbi, hirsi də soyuyar. Bundan əlavə, valideynlər kiberbullinq ehtimalları, qoruma tətbiqləri (filtrlər) və s. kimi virtual təhlükələr və tədbirlər mövzusunda maarifləndirilməlidir.

Məktəb və cəmiyyət

Bu bölmədə bullinqin qarşısının alınması üçün məktəb, cəmiyyət və dövlət tərəfindən atılmalı addımlar sadalanır və izah olunur. Forma 1, 2 və 3-də bullinq riski altında olanların, bullerlərin və bullinq qurbanlarının müəyyən olunması üçün suallar və maddələr verilib. Bullinqin profilaktikasında ən vacib işlərdən biri buller və qurban olma riski daşıyan uşaqların müəyyən edilməsi dayanır. Bunun üçün elmi ədəbiyyat əsasında hazırlanmış aşağıdakı formanın məktəblərdə tətbiqi təklif olunur.

Uşaqların zorakılığa məruz qaldığını necə anlamaq olar

FORMA 1.

	Məktəbdə bullinq qurbanı və buller olma riski daşıyan uşaqların təyin olunması üçün maddələr	**Bəli: B Xeyr: X**
1	Uşaq fiziki cəhətdən zəif və gücsüzdür.	
2	Fiziki cəhətdən fərqlidir (doğum ləkəsi, anadangəlmə fərqliliklər, fiziki məhdudiyyətlər).	
3	Utancaq, introvert uşaqdır, özünü müdafiə etməkdə çətinlik çəkir.	
4	Həssas, küsəyən, emosional uşaqdır.	
5	Özünə güvəni və özünü qiymətləndirməsi aşağıdır, sakit, başıaşağı uşaqdır.	
6	Hamıdan, öyrəşiləndən fərqli xüsusiyyəti olan uşaqdır (fərqli davranış, vərdiş, hobbi, paltar, fikir).	
7	Məktəbə yeni gələn uşaqdır, öyrəşmə, yeni dostlar tapma mərhələsindədir.	
8	Ailəsində problemlər var (ailədaxili şiddət, dava-dalaş, boşanma).	
9	Sosial və maddi durumu aşağıdır.	
10	Dini, dili fərqlidir.	
11	Yaşına görə davranışları fərqlidir.	
12	Milli azlıqlardandır.	
13	Digərlərindən yaşca böyükdür.	
14	Digərlərindən güclüdür.	

15	Digərlərindən daha fərqli zəka tipinə malikdir.	
16	Digərlərindən daha varlı və yüksək sosial-iqtisadi statusa malikdir.	
17	Valideynlərindən həbsə düşən var.	
18	Valideynlərinin məşğuliyyəti qeyri-ənənəvidir.	
19	Valideynlərinin psixoloji problemi var. Məs., hədsiz avtoritardır, travmalıdır.	

Bullerlər və qurbanların müəyyən edilməsi üçün mütəxəssislərin verdiyi cavablardan iki cədvəl hazırlamaq mümkündür. Bu cədvəllərdəki sualları yoxlama siyahısı (çeklist) olaraq "bəli və ya xeyr" şəklində cavablandırdıqda bulleri və qurbanı təyin etmək mümkün olacaq. Bu cədvəllərin hazırlanması zamanı elmi ədəbiyyatdakı oxşar cədvəllərə də nəzər yetirilib.

FORMA 2

	Məktəbdə buller uşaqları təyin etmək üçün suallar	**Bəli: B Xeyr: X**
1	Tez-tez başqalarına ləqəb qoşur?	
2	Başqalarını ələ salıb lağ edir?	
3	Başqaları ilə kobud rəftar edir?	
4	Müəllimlərinə, ya da yoldaşlarına qarşı aqressivdir?	
5	Ondan bir şey istədikdə, bir şey etməsini xahiş etdikdə hirslənir?	
6	Hər hansısa bir asılılığı var?	
7	Başqalarını itələyir, ya da vurur?	
8	Başqalarının əşyalarını alır və ya gizlədir?	
9	Başqalarının əşyalarına zərər yetirir?	
10	Başqalarına yumruq göstərmək, üstünə yerimək kimi davranışları var?	
11	Söyüş söyür?	
12	Təhqiramiz ifadələr işlədir?	
13	Başqaları haqqında nalayiq şayiələr, xəbərlər yayır?	
14	Başqalarına hədə-qorxu gəlir?	
15	Başqalarını hansısa xüsusiyyətinə görə alçaldır?	
16	Ətrafına insanları toplayıb bir nəfəri qrupdan təcrid edir?	
17	Bir yoldaşı ilə sanki o, yoxmuş kimi davranır?	
18	Başqalarının sosial media paylaşımlarını ələ salır?	
19	Saxta sosial media hesabı var?	
20	Mobil telefon, ya da kompüterlə başqalarını təhqiramiz formada tənqid edir?	

21	Başqalarına əxlaqsız məzmun göndərir, ya da başqalarının şəkillərini digərləri ilə bölüşür?	
22	Hansısa formada şantaja əl atır?	
23	Məktəb və sinif qaydalarını tez-tez pozur?	
24	Empatiya hissi güclüdür?	
25	Başqalarının hisslərini anlayır?	
26	Məktəb tədbirlərində fəallıq göstərir, üzərinə məsuliyyət götürür?	
27	Əsəblərinə nəzarət edə bilir, özünü ələ ala bilir?	

FORMA 3

	Məktəbdə bullinq qurbanı uşaqları təyin etmək üçün suallar	**Bəli: B** **Xeyr: X**
1	Məktəbə gəlmək istəyir? Həvəslə gəlir?	
2	İzah etməkdə çətinlik çəkdiyi qorxuları var?	
3	Gecə qorxulu yuxular görür?	
4	Yerini isladır?	
5	Həmişə öyrəşdiyi ictimai nəqliyyatdan istifadə etməyə çəkinir?	
6	Həmişə getdiyi yerə tək getməkdən qorxur?	
7	Əyşalarında və ya bədənində bir zədə (qızartı, göyərti) var?	
8	Nəyisə gizlətdiyini hiss edirsiniz?	
9	Sizinlə danışanda hər zamankından fərqli olaraq gözlərini qaçırır?	
10	Adətinə zidd olaraq az danışır və ünsiyyətdən qaçır?	
11	Özünə qapanır və heç kimlə görüşmək istəmir?	
12	İfrat həddə əsəbi davranır? Münasibət qurmaq istəmir?	
13	Xarakterik olmayan ağrıları, ürək bulanması var?	
14	İştahası azalıb?	
15	Özünü yorğun və yuxusuz hiss edir?	
16	Özünü zəif və gücsüz hiss edir?	
17	Duruşunda əziklik və sınıqlıq var?	
18	Şəxsi təmizliyi, səliqə-sahmanı necədir?	
19	Dərslərdə fəaldır?	
20	Məktəbdən kənar fəaliyyətlərə qoşulur?	
21	Dostları var?	

22	Dostları tərəfindən qəbul olunur? Onlarla xoş ünsiyyəti var?	
23	Şəndir?	
24	Uzun müddət telefonla məşğul olur, kiminləsə yazışır?	
25	Evdən maddi dəyəri olan bir şey (pul, siqaret və s.) oğurlayır?	
26	Davranışlarında özünə zərər verməyə meyil hiss olunur, belə bir istəyi var?	
27	Ümumən həyatla bağlı bezginlik hiss olunur?	

Mütəxəssislər məktəb və cəmiyyət kateqoriyasında Cədvəl 18-də qeyd olunan kodları qeyd ediblər.

Cədvəl 18	
Kateqoriya: Məktəb və cəmiyyət	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Psixoloq saatı	14
Psixoloq otağı	25
İttiham etməmək	12
Əməkdaşlıq	5
Psixoloqların motivasiyası	25
Peşəkar inkişaf	17
Alternativ fenomenlər	5
İctimai məlumatlılıq	12
Tərbiyənin prioritetləşdirilməsi	10
Öhdəlikləri bölüşmək	10
Ədalət	5
Stress menecment	5
Məktəb psixoloqu olmaq həvəsi	24
Valideynlərə təlimlər	7
Temperament testləri	4
Risk qrupu	3
Məktəbdə telefon istifadəsinə məhdudiyyət	23
Etibar poçtu	10

Cədvəldən göründüyü, kimi mütəxəssislər məktəbdə, cəmiyyətdə və ümumən ölkə miqyasında görülməli işlərə diqqət çəkiblər. Mütəxəssislərin çoxu məktəblərdə psixoloqların effektiv

işləməsi üçün daha yaxşı şəraitin yaradılmalı olduğunu qeyd ediblər. Məsələn, mütəxəssis QM1 məktəblərdə psixoloq otağının vacibliyinə diqqət çəkir:

Məktəblərdə psixoloqların xüsusi məkanı olmalıdır. Onlar işlərini görmək üçün boş sinif və boş saat axtarışında olmamalıdırlar. Belə bir mühitdə effektiv psixoloji xidmətdən söhbət gedə bilməz.

Məktəblərdə psixoloq və müəllimlərin psixologiyaya dair biliklərinin zəifliyinə, hətta bir qisminin psixoloji problemləri olduğuna diqqət çəkilir. Ona görə də mütəxəssislər psixoloji monitorinqlərin müəllim və psixoloqlar arasında da aparılmalı olduğunu qeyd edirlər. Əksər mütəxəssislər müəllimlərin uşaqlarla gündəlik münasibətlərdə səhvlərə yol verdiklərini qeyd edirlər.

Mütəxəssis QM15 korporativ kommunikasiya məsələsinə aşağıdakı ifadələrlə toxunur:

Məktəbdə müəllim, direktor və psixoloq ittihamedici üslubdan qətiyyətlə qaçınmalıdır. Şəxsiyyətin alçaldılması bullinqin əsas səbəbidir. Bu səbəb aradan qalxdıqda bullinqin qarşısı da alınacaq. Bunun üçün isə məktəb heyəti effektiv ünsiyyətin qaydalarını öyrənməlidir. Müəllim və psixoloqların bir qismi sinifdə yeniyetmə uşaqlara digərlərinin yanında mənfi diaqnoz qoyur, üstəlik digərinə də: "Sən də belə davam etsən, onun kimi olacaqsan" – deyir.

Mütəxəssis QM1 isə bullinqin ictimai problem olduğuna diqqət çəkir və qeyd edir ki, bullinq ictimai vəziyyətin təbii nəticəsidir:

Milyonlarla insanın baxdığı və rəy yazdığı bir video, əlbəttə, uşaqlar üçün nümunə olacaq. Bunun yanlış olduğunu uşaqlara inandırmaq çətindir. Deməli, insanlar o cür şeylərə rəğbət göstərməməlidir ki, o davranış da köçürülərək təkrar olunmasın.

Mütəxəssis KM3 isə məktəblərdə tərbiyə məsələsinin vacibliyini vurğulayır:

İctimai tərbiyə valideynlərin öhdəsinə buraxılası məsələ deyildir. Çünki hərənin dünyagörüşü, tərbiyəsi, təhsili fərqlidir. Cəmiyyətdə isə ortaq dəyərlərə ehtiyac var. Bunun təlimi də nəzarət xaricində olan evlərdə mümkün deyil, nəzarət edilə bilən məktəblərdə mümkündür. Məktəb təlim və tədris fəaliyyətindən əvvəl tərbiyə məsələsini prioritetləşdirməlidir. Təhsili onsuz da istəyənlər müxtəlif formalarda əldə edirlər.

Mütəxəssis QM2 hisslərini də ifadə edərək məktəblərdə uşaqların müxtəlif formalarda bullinqə məruz qaldığını və bunun nəticəsi olaraq bullinq davranışlarını mənimsədiyini qeyd edir:

Təəssüf ki, hələ də müəllimlə dil tapa bilməyən valideynin övladı həmin sinifdə normal təhsil ala bilmir. Bu dəyişməlidir. Öz düşüncələrinə zidd olsa belə, uşaqlar müəllimləri ilə razı olmaq məcburiyyətində qalmamalıdır.

Mütəxəssis QM4 məktəblərdə yanlış yanaşmalardan aşağıdakı nümunə ilə bəhs edir:

Bir dəfə müəllimlər bir hiperaktiv uşaq barədə valideynə məsləhət görmüşdü ki, uşağı polislə qorxutsun. Demişdilər ki, gəlsin uşağı məktəbdən polis götürsün. Beləcə gözünün odu alınsın.

QM6 isə KİV-lərin roluna diqqət çəkərək cəmiyyətdə düzgün nümunələrin təbliğinin artmalı və ictimailəşdirməli olduğunu deyir. Digər bir mütəxəssis QM3 isə bullinqin qarşısının alınması, profilaktikası üçün müntəzəm tədbirlərin görülməsini vacib hesab edir. O deyir ki, bullinq hallarının baş verməməsi üçün məktəbdə hər həftə uşaqların psixoloji sağlamlığının artırılması, onların bu yöndə maarifləndirilməsi üçün sessiyalar keçirilməlidir.

Psixoloji profilaktika məqsədilə yeniyetmələrlə həftədə bir dəfə dərs kimi koqnitiv qrup terapiyası təşkil oluna bilər. Burada uşaqların yoxlama cədvəlləri, müəyyən maraqlı tapşırıqları və

onlarla aparılan psixoloji işin proqramı olur. Bu proqram vasitəsilə uşaqların emosiyaları tənzimləmə bacarıqları, psixoloji dözümlülük səriştələri inkişaf etdirilir. Bu proqram çərçivəsində uşaqlara öyrədilən bir bacarıq da uyğunlaşmadır. Bu bacarığın öyrədilməsi bullinqin müxtəlif növlərinin qarşısının alınmasında effektiv üsul sayılır. Sərhədlərini qoruma, "Yox" deyə bilmə bacarıqlarının inkişafı çox əhəmiyyətlidir. Belə bir dərs, belə bir saat ibtidai sinifdən etibarən keyfiyyətli səviyyədə təşkil edilərsə, əslində, böyük bir profilaktik tədbir görülmüş olar, uşaqlarda emosional balans yaranar, inkişaf da normal qaydada gedər.

Mütəxəssis QM8 də bullinq hallarına dərhal reaksiya verməkdənsə, profilaktikanın daha səmərəli olacağını qeyd edir. O deyir ki, müəllimlərin məktəb daxilində peşəkar inkişafı vacibdir və bu inkişaf müəllimlərə daha yaxın olan, vəziyyəti, ehtiyacı görən məktəb direktorları tərəfindən təşkil olunmalıdır:

Müəllimlərin mühakimə etməmə, obyektiv müşahidə aparma, uşağı düzgün qiymətləndirmə, insana sevgi, insanı tanıma kimi bacarıqlara yiyələnməsinə zəmin hazırlanmalıdır. Müəllimlər effektiv ünsiyyət, cəza-mükafat üsulları kimi məsələlərə dərindən bələd olmalıdır. Ona görə də məktəb direktoru vəziyyəti qiymətləndirməli və müəyyən müəllimlər üçün zəruri təlimlər, dəyirmi masalar keçirməlidir.

Mütəxəssis QM21 isə müəllimlərin işə qəbul prosesindəki psixoloji testə əlavə olaraq psixoloji monitorinq aparılmasının da vacibliyini qeyd edir:

Müəllimlərin işə qəbulunda psixoloji test vacib olduğu kimi müəyyən müddət sonra yenidən yoxlamalara ehtiyac var. Bu yoxlama monitorinq xarakteri daşımalıdır. Psixoloji vəziyyəti yerində olmayan müəllimlərin bullinq aşılama ehtimalı yüksəkdir.

Mütəxəssislərin bir qismi məktəblərdə psixoloqların mövqeyinə, statusuna diqqət çəkib. Onların iş şəraitinin əlverişsizliyini, özünəinam hissinin zəifliyini, direktorların bu vəzifəyə düzgün yanaşmadığını və yekun olaraq onların vəzifələrinə aid olmayan işlər gördüklərini vurğulayan mütəxəssis QM24 fikrini bu cür ifadə edir:

Məktəb direktorları hamının vəzifə və öhdəliklərini düzgün bölüşdürməlidir. Direktor bullinqlə mübarizəyə şərait yaratmalı, qaydalar müəyyən etməli, psixoloji işə imkan verməlidir. Direktor müavini, müəllimlər və psixoloqlar arasında müntəzəm və effektiv əməkdaşlıq qurulmalıdır. Qaydalar olmalıdır, amma bu qaydalar məsələni kökündən həll etməyəcək. Bilmək hələ tam anlamaq və əməl etmək deyil. Ona görə də önləyici, qabaqlayıcı, proaktiv tədbirlərə ehtiyac vardır.

Mütəxəssislərdən 24-ü peşəkar psixoloqların çox az faizinin dövlət ümumtəhsil məktəblərində işlədiyini qeyd edir. Məsələn, mütəxəssis QM22 fikrini belə əsaslandırır:

Hazırda psixologiya, pedaqoji psixologiya və oxşar sahələrdə bakalavr, magistr təhsili alan tələbələrin əksəriyyəti məktəbdə psixoloq işləməyi düşünmür. Onlar adətən psixoloji mərkəzlərdə çalışmağı üstün tutur. Məktəblərdə fəaliyyət göstərən və daim özünü inkişaf etdirən, yeni səriştələr qazanan psixoloqlar da tezliklə məktəbdən ayrılmaq haqda fikirləşir. Ancaq Bakı və Bakıətrafı bölgələrdə bir neçə peşəkar məktəb psixoloquna rast gəlmək mümkündür. Onlar da bu işi filantropiya düşüncəsi ilə görür və əlavə maddi motivasiyaları mövcuddur. Görünən odur ki, savadlı və peşəkar psixoloqların məktəblərə cəlbi üçün müəyyən motivasiyalar olmalıdır. Belə olan halda işini bilən, səriştəli psixoloqlar məktəbə yönələcək, peşənin statusu da yüksələcək.

QM5 və digər 6 mütəxəssis valideynlərə təlim keçməyi, lazım gələrsə, onlarla da fərdi və qrup terapiyaları aparmağı məsləhət görür. Müəllimlərin diqqətli, ayıq-sayıq olmasının vacibliyini vurğulayan QM6 deyir:

Müəllimlər ayıq-sayıq olmalı, uşaqların anormal davranışlarını diqqətdə saxlamalı, onlarla fərdi məşğul olmalı, mənfi, xoşagəlməz davranışların səbəblərini öyrənməli, uşaqlara fərdi dəstək olmalıdırlar. Uşaqların sosial təcrid, depressiya, aqressiya kimi davranışlarına həyəcan siqnalı kimi yanaşmalıdırlar.

KM6 kodlu məktəb psixoloqu məktəbdə psixoloqun vəzifələrini öz təcrübəsinə əsaslanaraq belə izah edir:

Bir psixoloq olaraq, mən bir uşağın pəncərənin qabağında dayanıb bir nöqtəyə dərdli-dərdli baxdığını görürəmsə, tez onun yanına gedirəm, onunla söhbət edirəm, yoldaşlarından soruşuram, bir problemi varmı deyə maraqlanıram. Bu mənada məktəb psixoloqları məktəbdə gözlərini dörd açmalı və daim müşahidə etməlidirlər. Psixoloq və müəllimlər sinfin mənfi liderini bilməli, tanımalı və onu nəzarətdə saxlamalıdır. Onun yeni qurbanlar tapmasına əngəl olmalı, artıq tapdıqlarını isə terapiyaya cəlb eləməlidir. Psixoloq tez-tez sorğular aparmalı, tədqiqatlar icra etməlidir. Müxtəlif üsullarla toplanılan məlumatlar problemi vaxtında aşkara çıxarmağa kömək edər.

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışların qarşısının alınmasında ən vacib tərəflərdən biri də məktəb rəhbərliyidir. Mütəxəssis KM5 məktəb rəhbərliyinin rolunu bu sözlərlə açıqlayır:

Məktəb rəhbərliyi bullinq məsələsini daim nəzarətdə saxlamalı, görməzliyə vurmamalı, kampaniya xarakterli deyil, daima effektiv iş aparmalıdır. Bu işlər təlim, tədqiqat və təhlil xarakterli olmalıdır.

Mütəxəssis QM7 bullinqin vaxtında aşkarlanması və zamanında müdaxilə edilməsinin əhəmiyyətini vurğulayır:

Bullinqi vaxtında ortaya çıxarmaq çox vacibdir. Əks halda nəticəsi intihara qədər gedər. Ona görə də vaxtında sistemli işlər görülməlidir. Risk qrupu sayıla biləcək uşaqlar müxtəlif elmi yanaşmalarla (müşahidə, sorğu və s.) müəyyən edilməli və psixoloqların onlarla iş aparması təşkil olunmalıdır. Bunun üçün isə psixoloqların səriştələrinin artırılmasına ehtiyac duyulur.

Rayonlarda təhsil sektorları və sektorların tabe olduğu regional təhsil idarələri də bullinqin profilaktikası istiqamətində müəyyən işlər görməlidir. Mütəxəssis QM8 bu işləri belə xülasə edir:

Bullinqlə bağlı maraqlı videolar, posterlər, broşürlər, bukletlər hazırlamaq, diqqət çəkən qısa tamaşalar hazırlayıb səhnələşdirmək, afişalar, infoqrafikalar asmaq müəyyən qədər müsbət təsir edir. Hazırlanan materialların müxtəlif kommunikasiya alətləri ilə uşaqlara, valideynlərə çatdırılması problemin profilaktikasına kömək edir. Anonim sorğularla bullerləri müəyyən edib onlarla fərdi işləmək daha köklü həll yolu sayılır.

Məktəblərdə bullinqin çox və ya az olmasına məktəbin fiziki strukturu da təsir edir. Buna tədqiqatda iştirak edən mütəxəssislərin 5-i diqqət çəkib. Onlar qeyd edirlər ki, məktəbin infrastrukturunu inkişaf etdirərək bullinqin qarşısını almaq olar. Mütəxəssis KM1 belə deyir:

Məktəbin fiziki quruluşu, infrastrukturu da bullinqin qarşısını ala bilər. Qız və oğlan sanitar qovşaqlarının bir-birindən uzaq olması, qapıların kilidinin işləməsi, qapıların altının bağlı

olması, dəhlizlərdə və həyətdə təhlükəsizlik kameralarının quraşdırılması bullinqin qarşısını xeyli ala bilər. Təmiz mühitdə təmiz davranışlar sərgilənir. Bu mənada məktəb təmiz olmalıdır və növbətçi müəllimlər tənəffüslərdə uşaqların istirahətinə nəzarət etməlidir. Müəllim isə sinifdə qaydalar müəyyən edərək hər bir bullinq növünün mənfi nəticəsini müəyyənləşdirməli, qaydalara ciddi əməl etməlidir. Müəllimin sinifdə ədalətli davranması vacibdir. Sərhədlər dəqiq olmalıdır.

Ədalət anlayışının təkmilləşdirilməsi də məktəblərdə bullinqin həllinə kömək edə bilər. Ədalətsizlik müəllimlər arasında belə bullinqə səbəb olur. Psixoloqa aparmaq cəza olmamalı, bütün cəza və mükafatlar sınaqdan keçmiş yerli və beynəlxalq elmi təcrübələrə uyğun verilməlidir. Ona görə də mütəxəssis KM2 belə qeyd edir:

Müsbət davranışlar mükafatlandırılmalıdır. Mükafat və cəza sistemi dəqiq olmalıdır. Amma "Bir də belə hərəkət eləsən səni psixoloqa aparacağam" kimi ifadələr cəza deyil, bullinqdir. Bu həm də psixologiya və psixiatriya elmini təhqir etməkdir.

Mütəxəssis KM1 məktəblərdə müəllim davranışlarının yaxşılaşdırılmasını tövsiyə edir, eyni zamanda psixoloqun səlahiyyətlərinə və iş şəraitinə diqqət çəkir:

Müəllimin səsini qaldırması və ya səs tonunu dəyişdirməsi də bəzən uşaq və yeniyetmələr üçün cəza üsulu olur. Ancaq bu, əsassız və yersiz davam edirsə, onda artıq uşağa qarşı bullinq sayılır. Bullinq də bullinqi doğurur. Psixoloq məktəbin psixoloqudur, sadəcə uşaqların deyil. Bunun üçün isə məktəbdə psixoloq otağının olması zəruridir və məktəblərdə hər 500 nəfərə bir psixoloq düşməlidir.

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınmasında KİV-lərin vəzifələrinə diqqət çəkən mütəxəssis KM6 bullinq hallarının ictimailəşməsi əleyhinədir:

Bullinq hallarını sadəcə həmin situasiya ilə əlaqəli şəxslər bilməli və onunla mübarizə aparmalıdır. Bir hadisəni bütün cəmiyyət bilməməlidir, əks halda bu, digərlərinə mənfi nümunə olar. Bullinqin qarşısını tam almaq isə mümkün deyil, hər bir halda olacaq. Məqsədimiz sadəcə artmasına mane olmaqdır.

Mütəxəssis KM2 isə bullinqin qarşısını almaq üçün təfəkkür və yanaşma dəyişikliyini təklif edir:

Məktəb rəhbərliyi və müəllimlər uşaqlara baxış və yanaşmalarını dəyişməlidirlər. Onların inkişafa meyilli, bacarıqlı, öyrənməyə hazır insanlar olduqlarına tam inanmalıdırlar. Müəllimlər düşünməlidir ki, bu dövrün uşaqları daha çətini bacarır. Bu qədər diqqət dağıdan cihazların olduğu dövrdə dərslə məşğul olmaq asan iş deyil. Məktəb uşaqlara bu cür pozitiv yanaşdıqda uşaqlar də dəyişəcək.

Mütəxəssis KM5 bullinqin səbəbini və həllini əsasən valideynlərdə görür. O hesab edir ki, məktəbdə bullinqin qarşısının alınması istiqamətində lazımi tərbiyənin verilməsinə fürsət olmur:

Məktəb kollektiv tədris fəaliyyətinin icra olunduğu yerdir. Ona görə də fərqli uşaqların bir arada bir formada tərbiyəsi çox çətin görünür. Bu mənada məktəbi tərbiyə ocağı olaraq görmürəm. Çünki tərbiyə ilə bağlı fəaliyyətlərə məktəbdə vaxt, resurs və kadr ayrılmayıb.

Mütəxəssis KM2 məktəblərdə qayda-qanunların, nizam-intizam tədbirlərinin bullinqin qarşısını almaqda aciz qaldığını və lazımsız olduğunu diqqətə çatdırır:

Qayda-qanunlar işə yaramırsa, onu artırmaq lazımsızdır. Dəyər aşılamaq daha gözəl bir üsuldur. Dəyərləri aşılaya bilsək, onda qaydalar qoymağa ehtiyac qalmayacaq. Bunun üçün isə

dəyərlərin təlimi ilə bağlı illik fəaliyyət planı və təlimatlar olmalıdır. Dəyərlər dərslərə inteqrasiya edilərək örtülü, gizli kurikulum kimi ötürülməlidir.

Uşaqlarla birgə müəyyən fəaliyyətlərin həyata keçirilməsini bullinqə qarşı effektiv üsul hesab edən KM3 emosional balansın qorunması üçün müəyyən vörkşoplar təklif edir:

Məktəbdə uşaqlara emosiyalarına nəzarət öyrədilməlidir. Bunun üçün dram, rollu oyun və s. kimi fəaliyyətlər keçirilməlidir. Bunu psixoloq və ya müəllim edə bilər. Bullinq əməli artıq törədilibsə, tərəflərin hisslərini ifadə etməsinə şərait yaradılmalıdır. Bu isə çox zaman psixoloqun otağında mümkündür. Ona görə belə bir otağın olmağı və orada rahat mühitin yaradılması çox vacibdir.

Bundan əlavə, mütəxəssis rollu oyunun əhəmiyyətinə diqqət çəkir və bullerlərin rollu oyunlar vasitəsilə qurbanın keçirdiyi hissləri anlaya biləcəyini qeyd edir. Ona görə də məktəblərdə oyun terapiyasının vaxtaşırı təşkil olunmasını məsləhət görür.

Yuxarıda qeyd olunduğu kimi mütəxəssis KM3 də məktəb psixoloqu vəzifəsinin stimullaşdırılmasının əhəmiyyətinə toxunur və məktəbdə müntəzəm nəzarətin bullinqin qarşısını ala biləcəyini bildirir:

Peşəkar psixoloqlar mütləq məktəbə cəlb olunmalıdır. Hazırda vəziyyət bunun əksinə cərəyan edir. Bundan əlavə, Finlandiyada istifadə olunan və bullinq hallarını 50% azaldan bir üsulu qeyd etmək istərdim. Bu üsul belədir: müəllimlər həftədə bir neçə dəfə məktəbin müəyyən yerlərində növbətçi dayanır, bir bullinq hərəkəti görən kimi bulleri saxlayıb ona bullinq elədiyini və bu davranışının çox zərərli olduğunu xatırladır. Beləcə, onlar da bu davranışlarından əl çəkir. Bullerlər adətən etdiklərinin bullinq olduğu xatırladıldıqda həmin hərəkətdən uzaqlaşırlar. İkinci bir üsul isə tədqiqat, təhlil aparılması və böhran idarəetmə komandasının qurulmasıdır. Bu komanda problemləri ortaya çıxmazdan əvvəl və ya çıxandan sonra müəyyən edə, səbəbini araşdıra və həll yolları tapa bilər.

KM4 isə daha maraqlı bir məqama toxunaraq bullinqin uşaqların əyləncəsi olduğunu bildirir və uşaqlar üçün məktəbin daha əyləncəli bir yer halına gətirilməsinin önəminə diqqət çəkir:

Bullinq təhsil mühitində uşaqlar üçün bir əyləncə vasitəsidir. Bəzi uşaqlar dərsdə sıxılırlar. Həmin uşaqlar üçün dərslər maraqlı və əyləncəli olarsa, bullinq də azalar. Ona görə də dərslər, proqramlar, tədris üsulları daha əyləncəli vəziyyətə gətirilməlidir.

QM21 və digər mütəxəssislər qurumlararası əməkdaşlığın vacibliyini xüsusi qeyd edir, bu əməkdaşlığın bullinqin qarşısını almaqda və profilaktikasında effektiv olacağını bildirir. Onlar sadəcə məktəb daxilində deyil, məktəblə digər dövlət qurumları arasında da effektiv əməkdaşlığın müsbət nəticələr verəcəyini bildirirlər:

Məktəb müəllimi və psixoloqu həm buller, həm də qurbanın valideynləri ilə fərdi əməkdaşlıq etməlidir. Məktəb psixoloqu boş dərslərə girən əvəzedici, qorxu obyekti, çoxlu sənəd işi görən kargüzar kimi statuslardan xilas olmalıdır. Məktəbdə onun dəyəri, stutusu və nüfuzu mütləq artırılmalıdır. Nazirliklər arasında müxtəlif əməkdaşlıq formatları qurulmalıdır. Elm və Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Sosial Müdafiə Nazirliyi və müvafiq komitələr birlikdə fəaliyyət göstərməli və kompleks işlər görməlidir.

Kiberbullinq hallarına qarşı bir həll yolu kimi isə mütəxəssislərin əksəriyyəti məktəbdə telefon məhdudiyyətinin olmasını arzulayır. Onlar uşaqların sıx siniflərdə telefondan asanlıqla istifadə

etdiyini nəzərə çatdırırlar. Çünki uşaq sayı çox olan siniflərdə bəzən bütün şagirdlərə nəzarət etmək mümkün olmur. Smartfonlar vasitəsilə müxtəlif məzmunların göstərilməsi və bölüşülməsi hallarına tez-tez rast gəlinir. Ona görə də mütəxəssislər uşaqların telefonlarını qoymaları üçün şkaf hazırlanmasını tövsiyə edirlər. Əlavə olaraq, mütəxəssislərin bir qismi uşaqların şikayət və narahatlıqlarını, təklif və iradlarını bildirmələri üçün "etibar poçtu" qutusunun hazırlanmasını təklif edirlər. Bu yolla şagirdlər narahatlıqlarını rahatlıqla, konfidensial formada çatdıra bilərlər.

Mütəxəssislər bullerlərin bir qisminin söhbət aparmaqla, izahat verməklə bullinqdən daşındıqlarını bildirirlər. Onlarla vaxtında danışmaq, bullinqin fəsadlarını izah etmək və bu əməlin nə qədər təhlükəli olduğunu başa salmaq effekt verəcəkdir. Ona görə də əsas məsələ bullerin və qurbanın vaxtında aşkar olunması, onlarla düzgün söhbət aparılmasıdır. Mütəxəssislər müəllim və sinif rəhbərlərinin uşaqlarla maraqlanmağa adətən həvəs və vaxtlarının olmadığını qeyd edirlər. Müəllimlər sadəcə məktəbə gəlir, dərslərini keçib gedirlər. Sinif rəhbərlərinin həmin uşaqlarla məşğul olmaq üçün ayrıca vaxtı yoxdur. Ona görə də uşaqların əhvali-ruhiyyəsi onların da nəzərindən qaça bilir. Tədqiqat mütəxəssisləri uşaqların, xüsusilə də oğlanların bullinq hallarını gizlədiklərini deyirlər. Əksər mütəxəssislər yeniyetmə oğlanların problemlərini qadın psixoloqlara deməkdən çəkindiklərini bildirirlər. Bu prosesdə sinif rəhbəri, müəllim, məktəb psixoloqu və valideynin birgə işləməsi vacibdir. Məktəb rəhbərliyi bu əməkdaşlığı həm stimullaşdırmalı, həm də ona şərait yaratmalıdır.

Yekun olaraq, məktəbin müəllim və psixoloqların işini asanlaşdırmaq, onların səriştələrini artırmaq, nazirliyin isə müəllim və məktəb psixoloqu hazırlığını təkmilləşdirmək üçün daha qabaqcıl proqramlar hazırlamaq, bu çərçivədə ali təhsil müəssisələri ilə əməkdaşlıq etmək kimi bir öhdəliyi vardır. Əlavə olaraq, aparılan monitorinqlər və müşahidələr gedişatda yol verilən səhvlərin müəyyən olunmasına, lazımi addımların atılmasına kömək edər.

Şəxsin özü

Bu hissədə bullinqin qarşısının alınması, fəsadlarının aradan qaldırılması və profilaktikası üçün uşaqların özlərinin prosesə qoşulmalarının vacibliyindən bəhs edilir. Mütəxəssislərin bu kateqoriyadakı qeydləri kodlaşdırılıb və birbaşa sitatlarla əsaslandırılıb.

Susma

Cədvəl 19	
Kateqoriya: Şəxsin özü nə edə bilər	
Kodlar	**30 mütəxəssis arasında qeyd olunma tezliyi**
Ekran saatlarını azaltmaq	10
Mütaliə	5
Fərdi inkişaf	11
Özünüməşğulluq	3

İdman	12
Adekvat cavab	15
Məlumatlılıq	28

KM1 və digər 9 mütəxəssis uşaqların öz ekran saatlarına və izlədikləri məzmunlara diqqət yetirmələrini vurğulayıb. Bundan əlavə, uşaqların xarakterinin inkişafını dəstəkləyən mütaliələrin onları bir şəxsiyyət kimi daha da gücləndirəcəyini vurğulayan mütəxəssislər də var. Demək olar ki, bütün mütəxəssislər uşaqların müntəzəm və müxtəlif innovativ metodlarla maarifləndirilməsinin əhəmiyyətini vurğulayıblar. QM6 qeyd edir:

Hər bir uşaq bullinqin nə olduğunu bilməli, öyrənməli və unutmamalıdır. Bundan əlavə, bullinq hərəkəti ilə qarşılaşdığı zaman nə edəcəyini də öyrənməli, yadında saxlamalı və bildiyinə çəkinmədən əməl etməlidir.

Uşaq təkrar aqressiv davranışa məruz qaldıqda bunun bullinq olduğunu anlamalı, vəziyyəti müəllimlərinə, məktəb rəhbərliyinə və valideynlərinə mütləq bildirməlidir. Bullinq edən uşaq isə nəticələrlə üzləşməyi bacarmalı və bənzər davranışlardan əl çəkməlidir.

Eyni mövzu ilə əlaqədar mütəxəssis QM8 isə belə deyir:

Uşaqlar öz hüquqlarını bilməli və özlərini müdafiə etməlidir. Bunun üçün valideynə və məktəbə iş düşür. Ancaq uşağın özü də burada öncül olmalı, öyrənməyə, özünü və yoldaşlarını müdafiə etməyə can atmalıdır.

QM7 kiberbullinq və şantaj kimi əməllərin törədilməməsi üçün bu məsələlərin uşaqlara öyrədilməsinin vacibliyini vurğulayır:

Uşaqlar qətiyyən özləri və yaxınlarının şəxsi məlumatlarını, şəkillərini, videolarını, kart nömrələrini digərləri ilə bölüşməməlidir. Virtual mühitdə yol verilən kiçik bir xəta böyük problemlərin qapısını açar. Uşaqları tanımadıqları şəxslərdən gələn imeylləri, mesajları açmamalı, açdıqlarını cavablamamalıdır.

KM2 isə uşaqların məlumatlı olmasına diqqət çəkir:

Uşaq bilməlidir ki, o, dəyərlidir, o, çətin bir işi bacarır, ona əhsən! O, hörmətə layiqdir və hamı da onun kimi hörmətə layiqdir. Uşaqlar özü, düşüncələri, davranışları haqqında düşünməli və qərarlar almalıdır. Fikrimizcə, bir çox uşağın buna dərrakəsi çatır. Bullinq bir az da vərdişlərlə əlaqədardır. Bu vərdişləri yeniləri ilə əvəz etmək dolayısı ilə bullinqin də qarşısını alacaq.

Uşaqların aktiv həyat tərzinin, sosial fəallığının, açıq münasibətinin ona böyük fayda gətirəcəyinə diqqət çəkən mütəxəssislər bu çərçivədə xüsusilə hobbilərin olması, idman və incəsənətlə məşğul olma məsələlərini vurğulayıblar. Məsələn, QM1 fikrini belə ifadə edir:

Uşaq özünü müdafiə edəcək qədər cəsarətli, fiziki cəhətdən sağlam olduğu zaman adətən bullinqə məruz qalmır. Qalsa belə, buller adekvat reaksiya ilə qarşılaşdıqda hərəkətini bir daha təkrarlamır. Ona görə də uşaqların fiziki cəhətdən sağlam olması bu məqamda çox vacibdir.

KM1 isə belə deyir:

Uşaqlar çox zaman enerjisini sərf etməyə yer tapa bilmədiyinə görə buller olur. Bu səbəbdən də onların enerjisini başqa yerlərə, məsələn, idman və ya incəsənətə yönəltmək lazımdır. Bu fəaliyyətlər uşaqların enerji və diqqətini özünə cəm edir, beləcə lazımsız hərəkətlərə nə həvəs, nə də vaxt qalır.

ƏLDƏ EDİLƏN NƏTİCƏ VƏ İRƏLİ SÜRÜLƏN TƏKLİFLƏR

Bullinq 13-17 yaşlı uşaq və yeniyetmələr arasında ümumi problemdir və ciddi fəsadlara səbəb ola bilər (Espelage və Swearer, 2011). Həm bullerlərə, həm də qurbanlara mənfi təsir göstərən bu davranışın qarşısının alınması və dayandırılması böyük əhəmiyyət kəsb edir (APA, 2015). Aparılan tədqiqat zamanı bullinqin qarşısının alınması istiqamətində müəyyən nəticələrə gəlmişik. Həmin nəticələr əsasında müəyyən təklifləri irəli sürürük. 4 ay davam edən bu tədqiqat elmi ədəbiyyatla uyğun nəticələr əldə edib. Belə ki, yetkinlik yaşına çatmayanlar arasında bullinq yayğın bir problemdir. Ailədə, evdə, küçədə və məktəbdə bullinqlə tez-tez rastlaşmaq mümkündür. Uşaqlar arasında bullinqin ən çox verbal növünə rast gəlinir. Verbal bullinqin vaxtında qarşısı alınmadıqda arxasınca digər bullinq növləri gələ bilər. Yuxarı siniflərdə və şəhər məktəblərində kiberbullinq hallarının, aşağı siniflərdə isə verbal bullinqin nisbəti daha çoxdur.

Bullinqdə adətən 3 tərəf olur: buller, qurban və müşahidəçi. Bullinqin qarşısını almaq üçün bu üç tərəflə işləmək lazımdır. Bununla yanaşı, profilaktik tədbirlər görmək üçün müəllim, psixoloq və valideynin birgə işləməsi labüddür. Qızlar arasında verbal bullinq, oğlanlar arasında isə fiziki bullinq daha çox müşahidə olunur. İmtahana hazırlaşan uşaqların bullinqə qarışma nisbəti daha aşağıdır. Tədqiqat bullinq davranışlarının geniş spektrdə cərəyan etdiyini, səbəblərinin də ailədən, məktəbdən, cəmiyyətdən, şəxsin özündən qaynaqlandığını ortaya qoyur.

Tədqiqat nəticəsində aydın olur ki, bullinq davranışları bir səbəbdən qaynaqlansa belə, fərqli sferalarda insanın uğurlarına mənfi təsir edir. Ancaq çox zaman səbəblər və nəticələr kompleks xarakter daşıyır və multifaktorial olur. Bullinq davranışlarından uşaqlar fiziki, psixoloji, fizioloji və akademik cəhətdən zərər görür. Ona görə də bullinqin vaxtında aşkarlanması və tədbir görülməsi həyati əhəmiyyət daşıyır. Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın profilaktikası, yəni ümumiyyətlə baş verməməsi üçün valideynlər, müəllimlər, məktəb psixoloqları və məktəb rəhbərliyi birgə iş aparmalıdır. Burada əsas məsələ valideynlərin, müəllimlərin və psixoloqların işlərini, vəzifələrini, hüquqlarını dərindən bilməsi, vəzifələrini icra edərkən diqqətli, həssas, qayğıkeş və peşəkar olmasıdır.

Bundan əlavə, Sosial Müdafiə Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi birlikdə antibullinq tədbirləri hazırlamalı, hüquqi tənzimləmələr aparılmalı, hazırlanan proqramlar məktəbdə müntəzəm tətbiq olunmalıdır. Son dövrlərdə yayılan kiberbullinq xüsusi nəzarətə götürülməli, uşaqların virtual hərəkətləri, sosial media münasibətləri, İKT-dən istifadə formaları valideynlər tərəfindən nəzarətdə saxlanmalıdır.

Ailələrə, valideynlərə yönəlik təkliflər

Uşaqlarla bullinq haqqında açıq və dürüst danışılmalıdır. Valideynlər uşaqlar arasında aqressiv davranışlar haqqında övladları ilə söhbət aparmalı, yaşlarına uyğun videoçarxlar göstərməli və onları mütaliəyə həvəsləndirməlidir. Aqressiv davranışların fəsadları ilə bağlı müəyyən broşürlərə,

posterlərə, animasiyalara baxılmalı və reflektiv müzakirələr aparılmalıdır. Onlara bullinqin nə olduğu deyilməli və keçmiş təcrübələr bölüşülməlidir. Uşaqların bullinqlə bağlı narahatlıq və suallarını çəkinmədən ifadə etməsinə əlverişli mühit yaradılmalıdır.

Valideynlər uşaqların hisslərini başa düşməyə və onları mühakimə etmədən qulaq asmağa çalışmalıdır. Uşaqlar bullinqlə bağlı yaşadıqlarını danışarkən valideynlər səbirli və anlayışlı olmalıdırlar. Uşaqların bullinqlə bağlı emosional çətinliklərini anlamağa çalışmalı və onlara dəstək olmalıdırlar. Yadda saxlamalıdırlar ki, bullinq edən və ya bullinqə məruz qalan uşaqların gərgin olması normal haldır.

Uşaqların davranışına təsir edən ən mühüm amillərdən biri ailədir. Ailədə valideynlər hörmətcil, empatik və qeyri-zorakı ünsiyyət tərzini mənimsəməli, bununla uşaqlarına nümunə olmalı, daha çox güclü tərəflərini vurğulamalı və onlara özünəinam hissi aşılamalıdırlar. Valideynlər uşaqların istedadlarını kəşf etmələrinə, gizli potensiallarını üzə çıxarıb inkişaf etdirmələrinə imkanlar yaratmalıdır.

Bullinqə qarşı açıq-aydın və konkret bir mövqe ortaya qoyulmalıdır. Uşaqların bullinq törətdiyi və ya bullinqə məruz qaldığı öyrənildikdə vəziyyət ciddi qəbul edilməli və mütləq müdaxilə olunmalıdır.

Valideynlər uşaqların təhsil aldıqları məktəblə əlaqə saxlamalı, məktəbin bullinqlə hansı üsullarla mübarizə apardığını öyrənməlidir. Bullinqə qarşı mübarizə aparmaq üçün məktəb rəhbərliyi və müəllimlərlə əməkdaşlıq edilməlidir. Vəziyyəti yaxından müşahidə etmək üçün təsadüfi vaxtlarda məktəb rəhbərliyinin məlumatı daxilində məktəbə gedilməlidir. Uşaqlar sinifdə, həyətdə müşahidə edilməlidir. Valideynlər uşaqların xarakter tipinə, temperamentinə bələd olmalıdır. Uşaqlarla münasibətdə onların xarakter tiplərini, maraqlarını nəzərə almalıdır.

Uşaqları faydalı idman və incəsənət növləri ilə, elmi və əqli fəaliyyətlərlə məşğul etmək lazımdır. Onların özlərini inkişaf etdirməsi üçün şəraitə və dəstəyə ehtiyacı var. Onların sağlamlığı, fizioloji inkişafı izlənməli və diqqətdə saxlanılmalıdır. Uşaqların uğur qazana bildikləri fəaliyyətlərlə məşğul olmaları onların özgüvənini artıracaq, özlərinə dəyər verildiyini hiss edəcəklər. Beləcə küçədə və ya məktəbdə onlara hörmətsizlik edildiyini görəndə bunun bullinq olduğunu anlayacaqlar. Nəticədə, dəyər verilən uşaqlar başqalarına da dəyər verəcəklər.

Lazım gələrsə, psixoloq, psixiatr və ya kouçdan kömək istənilməlidir. Əlavə olaraq, ildə ən az bir dəfə psixoloq yoxlanışından keçməyə ehtiyac var. Bullinq problemi varsa, bullinqin uşağa təsirlərini psixoloqun qiymətləndirməsi və müvafiq dəstək verməsi vacibdir. Mütəxəssis məsləhəti ilə uşaqlar müəyyən testlər edə bilərlər. Beləcə, uşaqların özəlliklərini, güclü və zəif cəhətlərini aşkarlamaq, ona uyğun tədbirlər görmək olar. Diqqət edilməli müəyyən məqamlar varsa, valideyn mütləq bunu müəllimlərə bildirməli, müəllimlərin də bu məqamları nəzərə alması təmin edilməlidir.

Bunlar uşaqlara tez-tez xatırladılmalıdır:

- Bullinqə məruz qaldıqda susmamalı və məsələni böyüklərə söyləməlidirlər.
- Özünə inamlı davranmalı, dik dayanmalı, şax gəzməli və danışarkən göz təması qurmalıdır.
- Özünümüdafiə bacarıqlarını öyrənməli və lazım gəldikdə tətbiq etməlidir.
- Sosial mühitlərdə aktiv olmalı və sinif yoldaşları ilə dostluq etməlidirlər.
- Başqalarının hisslərini başa düşməli və empatiya qurmalıdırlar.

- Özünüifadə bacarıqlarını təkmilləşdirməli, fikirlərini, hisslərini söyləməli və qəzəbləndikdə özlərini ələ almağı bacarmalıdırlar.
- Problem həll etmə bacarıqlarına yiyələnməli, yoldaşları ilə aralarındakı münaqişələri konstruktiv və konflikt yaratmadan yoluna qoymalıdırlar.
- Başqalarına hörmət etməyi və fərqliliklərə tolerantlıq göstərməyi öyrənməlidirlər.
- Onlar bilməlidir ki, yoldaşlarının əşyalarına, məktəb ləvazimatlarına qəsdən zərər vermək, sinif yoldaşlarına fiziki xəsarət yetirmək cinayətdir.
- Uşaqlar 14 yaşdan sonra hüquqi məsuliyyət daşıdıqlarını bilməlidirlər.

Məktəblərə, cəmiyyətə, dövlətə yönəlik təkliflər

Məktəblər aydın, əhatəli antibullinq siyasəti hazırlamalı, bu siyasəti uşaqlar, valideynlər və müəllimlərlə bölüşməlidir. Məktəblər yeni təlim-tədris materialları hazırlayarkən bu tədqiqat hesabatının nəticələrindən, əlavə sənədlərindən və formalarından istifadə edə bilər. Valideynlərə və uşaqlara aid təklifləri çap və elektron formada onlarla bölüşmək və beləcə, maarifləndirmə işi aparmaq mümkündür.

Uşaq və müəllimlərə bullinqin tərifi, növləri, təsirləri və nəticələri haqqında müntəzəm təlimlər keçirilməlidir. Həmçnini uşaqlar, müəllimlər, valideynlər, xüsusilə məktəb psixoloqları buller və qurbanını müəyyən etməyi bacarmalıdırlar. Uşaqlar məktəbdə ya buller, ya bullinq qurbanı, ya da müşahidəçidir. Hər üç halda onların bilməli olduqları məsələlər var.

Məktəb mühiti elə dizayn olunmalıdır ki, uşaqlar özlərini təhlükəsiz, fiziki və psixoloji bullinqdən azad hiss edə bilsinlər. Bunun üçün dəhlizlər, sanitar qovşaqlar və məktəbin həyətyanı sahəsi bir daha nəzərdən keçirilməlidir.

Uşaqların bullinq hadisələri barədə anonim məlumat verə bildiyi təhlükəsiz rabitə kanalları yaradılmalıdır (məsələn, anonim poçt, etibar poçtu).

Bullinqə məruz qalan uşaqlara dəstək olmaq və bullerlərin davranışlarını dəyişdirmək məqsədilə həmin yaş qrupundakı uşaqlar üçün psixoloji dəstək proqramları həyata keçirilməlidir. Bunlar fərdi və qrup terapiyaları, psixoloji sağlamlığı inkişaf etdirən görüşlər, psixoloji özünüdərki artıran seminarlar ola bilər.

Müəllimlərə bullinqə qarşı müntəzəm təlimlər keçirilməli və onların bullinq hallarına müdaxilə bacarıqları təkmilləşdirilməlidir. Onlar nəyin bullinq olduğunu yaxşı anlamalıdırlar ki, özləri də bilmədən uşaqlara qarşı bullinq etmiş olmasınlar. Müəllimlər bullinqin nəticələrini dərindən dərk etsələr, bullinq davranışını digər mənfi davranışlardan ayırd edərlər və bu davranışları adi nadinclik kimi qəbul edib həllini uşaqların öhdəsinə buraxmazlar.

Məktəbin kollektivi, valideynlər və uşaqlar arasında açıq və effektiv ünsiyyət qurulmalı, bullinqlə bağlı problemlər vaxtında aşkar olunaraq həll edilməlidir. Valideynlərin övladlarına bullinqini məktəb müəyyən etməli, məktəbdə baş verən bullinqi isə valideyn, müəllim və psixoloq ortaya çıxarmalıdır. Bullinqi vaxtında müəyyən etmək bu əməllərin qarşısını almağa kifayət etmir, əlavə olaraq, tərəflərin birgə işi, ahəngdar addımlar atması lazımdır.

Məktəb rəhbərliyi bullinqlə mübarizədə digər qurumlarla (məsələn, polis, sosial işçilər) əməkdaşlıq etməlidir. Profilaktik tədbir olaraq polis əməkdaşlarının məktəbdə seminarı təşkil edilməli, humanist üsulların işə yaramadığı məqamlarda polisin buller tərəflə lazımi səviyyədə görüşü təmin olunmalıdır. Son çarə olaraq bullerin və valideynlərinin polis əməkdaşları ilə görüşü keçirilməlidir.

Müəllimlər öz siniflərində əlverişli öyrənmə mühiti yaratmalı, uşaqları qarşılıqlı hörmətə və bir-birinin sərhədlərinə diqqət yetirməyə təşviq etməlidirlər.

Müəllimlər bullinq hallarına dərhal və effektiv müdaxilə etməli, bullinqə məruz qalan uşağı dəstəkləməli və bullerlə əməlinə müvafiq şəkildə davranmalıdırlar. Müşahidəçi uşaqlara düşən vəzifəni davamlı olaraq izah etməlidir.

Müəllimlər valideynlərlə müntəzəm ünsiyyətdə olmalı, uşaqların davranışındakı dəyişiklikləri onlarla bölüşməli və bullinq problemlərini birlikdə həll etmək üçün əməkdaşlıq etməlidirlər.

Bullinqə qarşı mübarizəni dəstəkləyən hüquqi tənzimləmələr hazırlanmalı və bu qaydaların icrasına nəzarət edilməlidir.

Məktəblər bullinqə qarşı proqramlar tətbiq etmək üçün lazımi resurslarla təmin olunmalıdır.

Bullinqə dair araşdırmalar dəstəklənməli, bu tədqiqatların nəticələrindən siyasət və təcrübələrdə istifadə olunmalıdır.

Peşəkar psixoloqların məktəblərə cəlbi üçün əlavə motivasiya və stimullaşdırıcı tədbirlər görülməlidir. Psixoloqların sertifikatlaşdırılması həyata keçirilməli, uğurlu məktəb psixoloqlarının əməyi müxtəlif formalarda qiymətləndirilməlidir.

Psixoloqların məktəblərdə işə qəbulu təkmilləşdirilməli və məktəbdə işləmək daha cazibədar hala gətirilməlidir. Məktəblərdə psixoloqlara otaq ayrılmalı, onların effektiv işləməsinə şərait yaradılmalıdır. Psixoloqların məktəblərdə vaxtaşırı keçirdikləri monitorinqlərə nəzarət edilməli, onlardan görülən işlər və ümumi vəziyyət barədə hesabat tələb olunmalıdır.

Psixoloqların işinin təsviri aydın və konkret olmalı, onlar əlavə bürokratik işlərdən azad edilməlidir. Psixoloqların işini asanlaşdırmaq üçün onların məsul olduqları işlər, hazırlamalı olduqları sənədlər, keçirə biləcəkləri testlər, apara biləcəkləri monitorinqlər vahid platformada yerləşdirilməlidir. Burada psixoloqların məktəblərdə uşaqlara göstərə biləcəkləri qısa filmlər, hekayələr, nağıllar və s. yer ala bilər. Bununla da psixoloqlar onlara ayrılan xüsusi saatlarda uşaqların psixoloji, emosional və sosial rifahı, sağlamlığı yönündə mütəmadi olaraq lazımi işlər apararlar. Bütün bu işlərin icrası isə məktəblərdə çalışan psixoloqların kəmiyyət və keyfiyyət göstəriciləri ilə yaxından əlaqəlidir.

Şəxsin özünə yönəlik təkliflər

Özünəinam hissini inkişaf etdirmək uşaqların bullerlərin hədəfinə çevrilmə riskini azalda bilər. Yeni hobbilərlə maraqlanmaq, güclü tərəflərini kəşf etmək və müsbət düşünmək özünəinamı gücləndirmək yollarından hesab olunur (Smith və Myron-Wilson, 2014). Uşaqlar bu hesabatın bu hissəsini öyrənməli və əməl etməlidirlər. Onlar aqressiv davranış zamanı müşahidəçi mövqeyində olduqda qətiyyən səssiz qalmamalı və mübarizə aparmaq istiqamətində addım atmalıdır. Bu

addımlar aqressiv davranan uşağa xəbərdarlıq etmək, onu müəllimlərə, məktəb rəhbərliyinə şikayət etmək şəklində ola bilər.

Dostlar, ailə və ya etibar etdiyiniz yetkin bir insanla danışmaq bullinqlə mübarizədə mühüm addımdır. Unutmayın ki, heç bir uşaq tək deyil, dəstək ala biləcəyi insanlar var (APA, 2015).

Bullerə açıq şəkildə, qətiyyətlə "yox" deyə bilmək və sərhəd qoymaq vacibdir. Lazım gələrsə, sərhədləri qorumaq üçün uzaqlaşma və ya kömək istəmə kimi addımlar atmaq olar (Salmivalli, 2010).

Əgər bullinqlə mübarizədə çətinlik çəkilirsə, böyüklərdən kömək istənilməlidir. Bu davranış qətiyyən xəbərçilik deyil. Bullinq həyati məsələdir. Müəllimlər, məktəb rəhbərliyi və valideynlər bu məsələdə uşağa dəstək olmalıdır (Espelage və Swearer, 2011).

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın nə qədər zərərli olduğunu anlamağa çalışmaq bu davranışı azalda bilər. Özünü başqasının yerinə qoymaq və beləcə, empatiya qurmaq vacibdir (Gini, Pozzoli və Hymel, 2014).

Hiss və düşüncələri düzgün şəkildə ifadə etməyi öyrənmək problemləri bullinqə əl atmadan yoluna qoymağa kömək edər. Ünsiyyət bacarıqlarını artırmaq üçün kitablar oxumaq, təlimlərə qoşulmaq, bəzi filmlərə baxmaq və ya ekspertdən dəstək almaq məsləhət görülür (APA, 2015).

Hər kəsin fərqli olduğunu qəbul etmək və bu fərqlərə hörmət etmək insanı bullinq davranışından çəkindirən vacib anlayışlardandır (Salmivalli, 2010).

Aqressiyaya, əsəblərə hakim olmağın, hissləri cilovlamağın düzgün yollarını öyrənmək bullinq riskini azalda bilər. Qəzəb hissindən uzaqlaşmaq üçün idman etmək, dərindən nəfəs almaq və ya yazı yazmaq kimi üsullar işə yarayır (APA, 2015).

Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışa şahid olan hər bir insan mütləq və dərhal müdaxilə etməlidir. Belə durumlarda susmamaq, qurbana dəstək olmaq və böyüklərə xəbər vermək vacibdir. Həyatda sadəcə kütləyə qoşulmayanlar fərq yarada bilər (Salmivalli, 2010).

Uşaqların bullinqə qarşı kəskin mövqe tutması üçün məktəb və ya sosial mühitdə əlverişli şərait yaradılmalıdır (Smith və Myron-Wilson, 2014).

Bullinqə qarşı mübarizə yaşından asılı olmayaraq hər bir insanın borcudur. Bu təkliflərə əməl etməklə uşaq həm özünü, həm də yoldaşlarını qoruya bilər. Beləliklə, yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın yayılmasının qarşısı xeyli dərəcədə alınmış olar. Unutmayaq ki, bullinqə qarşı ən yaxşı müdafiə daxilən güclü və iradəli olmaqdır.

SON SÖZ

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə 2023-2024-cü tədris ilində aparılan bu tədqiqat ölkəmizdə yetkinlik yaşına çatmayanlar arasında bullinq fenomeninin bütün aspektlərini araşdıraraq önəmli məlumatlar əldə edib.

Nəticədə müəyyən olunub ki, 13-17 yaş arası uşaqlarda bullinq davranışının qarşısını almaq üçün məktəblər, təhsil idarəçiləri, müəllimlər və dövlət qurumları əməkdaşlıq etməli, birgə fəaliyyət göstərməlidir. Yuxarıda qeyd olunan tövsiyələrə əməl edərək uşaqların sağlam mühitdə böyüməsini və inkişafını dəstəkləmək birgə və effektiv fəaliyyətdən asılıdır.

Bu tədqiqat yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın təkcə fiziki və verbal bullinq deyil, həm də psixoloji, cinsi və kiber bullinq növləri ilə uşaqların həyatına dərindən təsir etdiyini ortaya qoyub. Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın əsas səbəbləri ailədaxili ünsiyyət problemlərindən həmyaşıd təzyiqinə, məktəb mühitindəki qeyri-adekvat yanaşmalardan media və internetin mənfi təsirlərinə qədər geniş diapazonda qiymətləndirilib.

Nəticələr göstərir ki, yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış təkcə qurbanlarda deyil, bullinqi müşahidə edən insanlarda da ciddi psixoloji və sosial fəsadlara yol açır. Buna görə də bullinqə qarşı mübarizə təkcə qurbanların müdafiəsi ilə məhdudlaşmamalıdır. Bu mübarizə bullinq davranışı nümayiş etdirən uşaqların reabilitasiyası və bütün uşaqların sağlam sosial mühitdə böyüməsi üçün də hərtərəfli siyasətin işlənib hazırlanmasını tələb edir.

Bu araşdırma bir daha təsdiqləyir ki, bullinqlə mübarizə təkcə dövlət qurumlarının deyil, həm də qeyri-hökumət təşkilatlarının, təhsilverənlərin, müəllimlərin, ailələrin və bütün cəmiyyətin ümumi vəzifəsidir. Azərbaycanın gələcəyi olan uşaqların xoşbəxt, sağlam və təhlükəsiz mühitdə böyümələri üçün bullinqə qarşı mübarizə səyləri əzmlə davam etdirilməli və bu məsələdə ümumi səfərbərlik ruhu ilə addımlar atılmalıdır.

Bu hesabatın ölkəmizdə bullinqlə mübarizə siyasətinin inkişafına və həyata keçirilməsinə töhfə verəcəyinə inanırıq.

Qeyd: Tədqiqat hesabatındakı fikirlərə görə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK) məsuliyyət daşımır.

ƏLAVƏLƏR

Məktəblər üçün bullinq yoxlama cədvəli

İstifadə etmədən əvvəl oxuyun!		
Bir davranışın kiberbullinq, ya da bullinq olduğunu müəyyən etmək üçün bu formanı doldurun. “Bəli” və “Xeyr” xanalarının aşağısına müvafiq maddə üzrə işarə qoyaraq hansıların uşağın göstərdiyi davranışı təsvir etdiyini müəyyən edin. Əgər işarə qoymağa heç bir bənd yoxdursa, deməli, bullinq gerçəkləşməyib. Bir davranışın bullinq olması üçün bu tərifdəki əlamətlərin müşahidə edilməsi lazımdır: Bullinq hər hansı fərqə görə bir insanın (qrupun) digərinə (insana, qrupa) məqsədli formada təkrarən zərər verməsi, onu incitməsi, təhqir etməsi, qorxutması, vurması və ya itələməsi, qrupdan təcrid etməsi, verbal və ya qeyri-verbal üsulla ona psixoloji, sosial, emosional xəsarət yetirməsi, onu görməzlikdən gəlməsi, ona etinasızlıq, laqeydlik göstərməsidir. Bu hərəkətlərin virtual mühitdə olması isə kiberbullinqdir.		
	Bəli	**Xeyr**
Hadisə məktəbdə, ya da məktəbin təşkil etdiyi hansısa tədbirdə baş verib? Burada davranış aktı əgər məktəbin tədbirində olubsa, məktəb məsuliyyət daşıyır və ölçü götürməlidir. Yox, kənarda olubsa, məktəblə qətiyyən əlaqəsi yoxdursa, valideyn polisə müraciət etməlidir.		
Hansısa şagirdin öyrənmə prosesinə mane olunub?		
Ümumi təlim-tədris prosesi, öyrətmə fəaliyyəti pozulub? Hərəkət aktı qeyd olunan kriteriyalara uyğun deyilsə, onda bullinq sayılmır. Məktəb məsuliyyət daşımır. Kriteriyalar uyğun gəlirsə, cədvələ davam edin.		
Müşahidə olunan davranış sizə görə bullinqdir?		

Davranış nədən ibarətdir? *Bu hissədə davranışı qısaca təsvir edin:*
Davranış hansı müstəvidə cərəyan edib? *Bu hissədə qeyd edin:*

Güc natarazlığı var?	**Bəli**	**Xeyr**
Fiziki təmas var?		
Fiziki olaraq şagirdin bədəninə və ya əşyalarına zərər verilib?		
Hadisə qəsdən, bilərəkdən icra olunub?		
Ciddi, uzunmüddətli, dərin xəsarət, zərər verilib?		
Hansısa uşaq qorxur, narahatdır?		
Uşaqlar, ya da müəllimlərdən məktəbə gəlmək istəməyən var?		
Sui-istifadə var?		
Tədris prosesinin davamlılığı pozulub?		
İnsan və uşaq hüquqları pozulub?		
Hərəkət elektron vasitə ilə və ya virtual mühitdə icra olunub? Məsələn, telefon, kamera, planşet, kompüter, sosial media, sayt.		
Məktəb ləvazimatları zərər görüb?		
Hadisə məktəbdə olmayıb, məktəb zərər görməyib?		
Hadisə məktəb gəzintisində, avtobusda, məktəbə aid və ya məktəb tərəfindən təşkil olunan avtobusda olub?		
Elektron və virtual mühitdə nələrsə baş verib?		

Verbal ifadələr nələrdir? Hansı qeyri-verbal davranışlar var?
"Bəli" cavabı əksəriyyət təşkil edirsə və sübutlar varsa, müşahidə olunan davranış BULLİNQDİR.

Bu sənəd AQUPDK sifarişi ilə 2024-cü ildə hazırlanıb.

Bullinqin növləri

Fiziki
Qurban müxtəlif dərəcədə və formada fiziki xəsarətlər alır.
Sosial
Fərdlər və ya qrup bir nəfəri təcrid edir, özündən kənarlaşdırır.
Kiberbullinq
Virtual mühitdə şərhlə, mesajla istismar edir, qorxudur, alçaldır, şantaj edir.
Verbal
Xoşagəlməz sözlərlə qurbanı təhqir edir, şəxsiyyətinə zərər yetirir.
Psixoloji
Güclü şagirdin nisbətən zəif şagirdə təzyiq göstərməsidir. Qarşı tərəfi alçaltma, oyun və fəaliyyətdən təcrid etmə, qarşı tərəf haqqında şayiə yayma şəklində özünü göstərir.

(Amerika Psixologiya Assosiasiyası, 2010)

Antibullinq sinif qaydaları
1. Telefonları çantamızda və ya görünməyən bir yerdə saxlayırıq.
2. Məktəbli forması geyinirik və sadəcə öz geyimimizlə məşğul oluruq.
3. Bullinq etmirik və bullinqlə qarşılaşdıqda tolerantlıq göstərmirik.

4.	Düzgün danışır və hamıya söz haqqı veririk.
5.	Yeməyi bufetdə yeyirik.
6.	Davranışlarımıza qarşı məsuliyyət daşıyırıq.
7.	Sinifdəki ləvazimatların, şəxsi əşyalarımızın qeydinə qalırıq.
8.	Hamıya hörmət edirik və şəxsi sərhədləri qoruyuruq.
9.	Sinifdə bütün fəaliyyətlərdə hamının fəal rol ala biləcəyini yadda saxlayırıq.
10.	Başqalarının hərəkətlərinə və sözlərinə gülməkdən, istehza etməkdən, ələ salmaqdan çəkinirik.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (2021). Uşaq siyasəti. Family.gov.az. Retrieved June 14, 2024, from https://family.gov.az/az/policies/usaq-siyaseti

Amerika Psixologiya Assosiasiyası. (2017). Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınması və bu cür davranışlara müdaxilə. *Bullinqə dair Qətnamədə* (səh. 1-5).

Amerika Psixologiya Assosiasiyası (APA). (2015). Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınması və bu cür davranışlara müdaxilə.

Amerika Psixologiya Assosiasiyası. (2010). Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranışın qarşısının alınması və bu cür davranışlara müdaxilə.

Azərbaycan Respublikasının Prezidenti (2020, İyun 2). *Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası.* E-Qanun.az. İstinad tarixi: 14 iyun 2024; mənbə: https://e-qanun.az/framework/45086

Barhight, L.R, Hubbard, J.A, Hyde, C.T. Children's physiological and emotional reactions to witnessing bullying predict bystander intervention. Child Dev. 2013 Jan-Feb;84(1):375-90. doi: 10.1111/j.1467-8624.2012.01839.x. Epub 2012 Aug 29. PMID: 22931441.

Bradshaw, C.P., Sawyer, A.L., & O'Brennan, L. M. (2009). A social-ecological model of bullying perpetration and victimization. *School Psychology Review*, 38(1), 104–127.

Buehler, & Crick. (2009). Adolescents' Triangulation in Marital Conflict and Peer Relations. *Journal of Research on Adolescence*, *19*(2). https://doi.org/10.1111/jora.2009.19.issue-2

Cook, C.R., Williams, K.R., Guerra, N., & Kim, T. (2010). Variability in the prevalence of bullying and victimization: A cross-national and methodological analysis. In S. R. Jimerson, S. M. Swearer, & D. L. Espelage (Eds.), The international handbook of school bullying (pp. 347–362). Mahwah, NJ: Erlbaum.

Craig, W.M., Henderson, K., & Murphy, J.G. (2000). Prospective Teachers' Attitudes toward Bullying and Victimization. *School Psychology International,* 21(1), 5-21. https://doi.org/10.1177/0143034300211001

Espelage, D. L. və Swearer, S. M. (2011). Bullying in American schools: A socioecological perspective on prevention and intervention. Routledge.

Gaffney, H., Farrington, D.P. & Ttofi, M.M. Examining the Effectiveness of School-Bullying Intervention Programs Globally: a Meta-analysis. *Int Journal of Bullying Prevention* 1, 14–31 (2019). https://doi.org/10.1007/s42380-019-0007-4

Gaffney H, Ttofi MM, Farrington DP. Effectiveness of school-based programs to reduce bullying perpetration and victimization: An updated systematic review and meta-analysis. Campbell Syst Rev. 2021 Apr 5;17(2):e1143. doi: 10.1002/cl2.1143. PMID: 37131921; PMCID: PMC8356322.

Gini, G., Pozzoli, T., və Hymel, S. (2014). Uşaqlar və gənclər arasında əxlaqsızlıq: aqressiv davranışla əlaqələrin meta-analitik baxışı.

Hong, J.S., & Espelage, D.L. (2012). A review of research on bullying and peer victimization in school: An ecological system analysis. *Aggression and Violent Behavior, 17*(4), 311–322. https://doi.org/10.1016/j.avb.2012.03.003

Johnson, D.W., & Johnson, R.T. (2004). Assessing Students in Groups: Promoting Group Responsibility and Individual Accountability. Thousand Oaks, CA: SAGE.

Kowalski, R.M, Giumetti GW, Schroeder AN, Lattanner MR. Bullying in the digital age: a critical review and meta-analysis of cyberbullying research among youth. Psychol Bull. 2014 Jul;140(4):1073-137. doi: 10.1037/a0035618. Epub 2014 Feb 10. Erratum in: Psychol Bull. 2014 Jul;140(4):1137. PMID: 24512111.

McCallion, S., & Feder, J. (2013). Student bullying: A review of the literature. Congressional Research Service. https://www.ncbi.nlm.nih.gov/books/NBK344235/

McDaidi, D., Hewlettii, E., & Parki, A.-L. (2017). Understanding effective approaches to promoting mental health and preventing mental illness [OECD Health Working Papers No. 97]. OECD Publishing. https://doi.org/10.1787/bc364fb2-en

Nansel ,T.R, Overpeck, M, Pilla, R.S, Ruan, W.J, Simons-Morton B, Scheidt P. Bullying behaviors among US youth: prevalence and association with psychosocial adjustment. JAMA. 2001 Apr 25;285(16):2094-100. doi: 10.1001/jama.285.16.2094. PMID: 11311098; PMCID: PMC2435211.

Olweus, D. (1993). Bullying at school: What we know and what we can do. Malden, MA: Blackwell Publishing.

Organisation for Economic Co-operation and Development [OECD]. (2023, Dekabr 5). Baku (Azerbaijan) | Factsheets | OECD PISA 2022 results. Retrieved from https://doi.org/10.1787/53f23881-en

Patchin, J.W., & Hinduja, S. (2015). Measuring cyberbullying: Implications for research. *Aggression and Violent Behavior, 23,* 69–74. https://doi.org/10.1016/j.avb.2015.05.013

Perren, S. & Gutzwiller-Helfenfinger, E. (2012). Cyberbullying and traditional bullying in adolescence: Differential roles of moral disengagement, moral emotions, and moral values. European Journal of Developmental Psychology - EUR J DEV PSYCHOL. 9. 195-209. 10.1080/17405629.2011.643168.

Polanin, J.R., Espelage, D.L., & Pigott, T. D. (2012). A meta-analysis of school-based bullying prevention programs' effects on bystander intervention behavior. *School Psychology Review*, *41*(1), 47-65. https://doi.org/10.1080/02796015.2012.12087375

Salmivalli, C. (2010). Bullinq və həmyaşıd qrupu: Baxış.

Slonje, R. and Smith, P.K. (2008), Cyberbullying: Another main type of bullying?. Scandinavian Journal of Psychology, 49: 147-154. https://doi.org/10.1111/j.1467-9450.2007.00611.x

Smith, P.K. və Myron-Wilson, R. (2014). Bullying and the victim: what we know and what we can do?

Smith, P.K. və Sharp, S. (1994). School Bullying: Insights and Perspectives.

Sutton, J., Smith, P. K., & Swettenham, J. (1999). Bullying and "theory of mind': A critique of the "social skills deficit' view of anti-social behaviour. *Social Development, 8*(1), 117–127. https://doi.org/10.1111/1467-9507.00083

Ttofi, M.M., & Farrington, D.P. (2011). Effectiveness of school-based programs to reduce bullying: A systematic and meta-analytic review. *Journal of Experimental Criminology*, 7(1), 27–56.

U.S. Department of Education, National Center for Education Statistics. NCES. (2021). Facts about Bullying. Report on Indicators of School Crime and Safety: 2020 (NCES NCES 2021-092), Bullying at School and Electronic Bullying. Retrieved from https://nces.ed.gov/

Wang, J, Iannotti, R.J, Nansel, T.R. School bullying among adolescents in the United States: physical, verbal, relational, and cyber. J Adolesc Health. 2009 Oct;45(4):368-75. doi: 10.1016/j.jadohealth.2009.03.021. Epub 2009 Jun 11. PMID: 19766941; PMCID: PMC2751860.

World Health Organization (2024, March 27). One in six school-aged children experiences cyberbullying, finds new WHO/Europe study [Press release]. https://www.who.int/europe/news/item/27-03-2024-one-in-six-school-aged-children-experiences-cyberbullying--finds-new-who-europe-study

Yeager, D.S. & Miu, A.S., (2015). Preventing symptoms of depression by teaching adolescents that people can change: Effects of a brief incremental theory of personality intervention at 9-month follow-up. Clinical Psychological Science, 3(5), 726-743.

Mənimlə danış

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
Ünvan. AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 498 00 92
Faks: (+994 12) 493 58 72
E-mail: office@scfwca.gov.az
https://twitter.com/AileQadinUsaq
https://www.instagram.com/aileqadinusaq/
https://www.facebook/AileQadinUsaqProblemleriUzreDovletKomitesi/
https://www.youtube.com/@aileqadinusaq

Nəşrə aşağıdakı şəkildə istinad edin:
Məhərrəmov, Q. (2024) *Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: bulling,* AQUPDK.

Texniki heyət:
Texniki redaktor: İmanyar Quliyev
Qrafik dizayner: İlkin Abdulla
Korrektor: Ləman Qoca

Hesabat "Libra kitab" MMC-də tərtib və dizayn edilmiş,
"Maxofset" mətbəəsində təqdim olunmuş
hazır material əsasında çap edilmişdir.
Çapa imzalanıb: 3 iyul 2024
Kağız formatı 60x901/8
Fiziki çap vərəqi 9
Tiraj 300, Sifariş 53